**EVDƏ QAL, SAĞLAM QAL!**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər**



Bax 2

**Dmitri Savelyev: "Hər hansı xalqda millətçiliyin hər hansı təzahürü qəbuledilməzdir"**



Bax 5



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 085 (6050) 20 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Vətəndaş mövqeyi:

## "Cənab Prezident, xalqımızın firavanlığı naminə yorulmadan çalışdığınıza görə Sizə minnətdarıq"

**Bütün dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması üçün gördüyü işlər Azərbaycan vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız dövlətimizin...**

Bax 6



## "İnsan alverinin başında duranlardan biri də Əli Kərimlidir"



"Bu gün miqrant alveri və insan alverinin başında Əli Kərimli dayanıb". SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının müzakirəsi zamanı millət vəkili Siyavuş Novruzov deyib. O bildirib ki, Azərbaycan vətəndaşları saxta...

Bax 5

## Milli Məclisin növbəti plenar iclası keçirilib

*Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova mayın 15-də parlament Aparatının rəhbəri...*



Bax 9

## Musa Quliyev: "Artıq daha çox ailə ünvanlı sosial yardımdan faydalana biləcək"



"Bu ilin əvvəlində dövlət başçısı ünvanlı sosial yardıma daha çox insanların cəlb edilməsi üçün hökumətə tapşırıqlar verib". SİA-nın məlumatına görə, bunu Milli Məclisin...

Bax 8

## Avropanın media üfüqlərində Paşinyan üçün biabırçı həqiqətin zəfər yürüşü

Macarıstanın ingilisdilli populyar "Daily News Hungary" nəşrində Avropa ictimaiyyətini Ermənistanın indiki baş nazirinin babası, "igid" faşist polisi Nikol Vartanoviç Paşinyanın sərgüzəştləri haqqında məlumatlandıran məqalə dərc edilib...



...laboration of Nikol Pashinyan's ...randfather with fascists revealed

Bax 5

## Mayk Tayson bu döyüşə razılıq verdi!



*Boks üzrə ağır çəkidə keçmiş dünya çempionu Şannon Briqs və Mayk Tayson döyüşməyə razılıq veriblər. Bu barədə Ş.Briqs jurnalistlərə müsahibəsində bildirib. O deyib ki, bu yaxınlarda rəsmi döyüşlə bağlı rəqibi ilə...*

Bax 16

## Baş Prokurorluq terrorçuluğu maliyyələşdirən şəxsi cinayət məsuliyyətinə cəlb edib

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkənin ictimai təhlükəsizliyinə qarşı yönələn təhdid və pozuculuq...



Bax 8

**ABŞ-ın Arizona ştatının paytaxtında 28 may Azərbaycan Milli Günü elan edilib**



A PROCLAMATION

AZERBAIJAN NATIONAL DAY

Bax 12

**Müxalif partiya sədrindən Milli Şuraya ittiham: "Bu bolşevizm prinsipidir"**



Bax 13

**Pakistan nəşri Qarabağ münaqişəsinin tarixindən yazır**



IslamabadPOST

Parts of a Circle: History of the Karabakh Conflict

Bax 9

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər

*"Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq"*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər.***



AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Heydər Əliyev prospektində yerləşən 3 saylı DOST mərkəzi paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərəcək. Mərkəzdə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Burada 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaş qəbul edə biləcək.

Dövlətimizin başçısına və birinci xanıma 2020-ci ilin əvvəlindən indiyədək sosial sahədə əldə olunan uğurlar, pandemiya ilə əlaqədar məşğulluğa və sosial rifaha dəstək tədbirləri, elektron sistemlər üzərindən göstərilən proaktiv xidmətlər, şəhid ailələrinin və müharibə əlillərinin mənzil və avtomobil təminatı, günərzi qayğı, icma əsaslı sosial reabilitasiya və yardım mərkəzləri, habelə DOST agentliyinin regional və beynəlxalq səviyyədə əldə etdiyi nailiyyətlər barədə də məlumatlar verildi. Ölkəmizdə əlilliyi olan şəxslər tərəfindən hazırlanan əl işləri nümayiş etdirildi.

Qeyd edək ki, 2019-2025-ci illərdə 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Onlardan 5-i Bakıda, 26-sı isə regionlarda olacaq. Ümumilikdə DOST mərkəzlərində "bir pəncərə" prinsipi ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək. Ötən il istifadəyə verilən 1 və 2 saylı Bakı DOST mərkəzlərində indiyədək 100 mindən çox şəxsə xidmət göstərilib, vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi isə 96 faiz təşkil edib. "Könüllü DOST" proqramı üzrə artıq 300-dən çox könüllü, o cümlədən 22 yaşlı şəxs bu mərkəzlərə cəlb edilib.

*"Koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni, pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi"*





Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Eyni zamanda, son illərdə icra olunan sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Bu baxımdan Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Birinci xanım Mehriban Əliyevanın təşəbbüsü olan DOST layihəsi əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyır.

Yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.

Prezident İlham Əliyevin müsahibəsi

***-Cənab Prezident, xoş gördük Sizi.***

-Salam.

***-Azərbaycanda bu gün həyata keçirilən sosial siyasətin tərkib hissələrindən biri də DOST mərkəzləridir. Bu gün yeni DOST mərkəzinin açılışında iştirak etdiniz. Ümumiyyətlə, Siz DOST mərkəzlərinin açılışını necə qiymətləndirirsiniz?***

Ardı Səh. 3

## Rəsmi xronika

Prezident İlham Əliyev "Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 5 mart tarixli 785 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Türkmənistanın Maliyyə və İqtisadiyyat Nazirliyi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Fərman imzalayıb.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər

*"Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq"*

Əvvəli Səh. 2

-Bu, çox gözəl sosial təşəbbüsdür. Bildiyiniz kimi, Azərbaycan bu sahədə də liderlik göstərir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Artıq üçüncü mərkəz açılır və ilk açılan iki mərkəzin fəaliyyəti də çox uğurludur. Vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıbdır. Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir və təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır.

Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq. Eyni zamanda, burada








*"Mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm. Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar. Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır"*

iş yerləri yaradılır. Mənə verilən məlumata görə, bu DOST mərkəzində 130-dan çox iş yeri yaradılır və o cümlədən könüllülər də işlərə cəlb olunur. Bütövlükdə 130-dan çox xidmətin göstərilməsi demək olar ki, sosial sahənin bütün xidmətlərini ehtiva edir. Beləliklə, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub. Eyni zamanda, burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur.

***-Cənab Prezident, açılışında iştirak etdiyiniz DOST mərkəzində digər mərkəzlərdə olduğu kimi, əməkdaşların mütləq əksəriyyəti gənclərdir. Siz tez-tez çıxışlarınızda gənclərin Azərbaycanın inkişafındakı rolunu xüsusi vurğulayırsınız. Ümumiyyətlə, Azərbaycanın bugünkü inkişafında gənclərin rolunu necə qiymətləndirirsiniz?***

- Mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm. Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar. Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır. Gənclər önəmli vəzifələrə təyin olunur: nazir, icra başçısı vəzifələrinə. Eyni zamanda, Milli Məclisdə kifayət qədər gənclərimiz var və DOST mərkəzində çalışan insanların demək olar ki, hamısı gənclərdir. Məhz innovasiyaya olan maraq, gənclərin fəallığı, onların müasir bilikləri imkan verdi ki, Azərbaycan öz daxili intellektual resursları hesabına belə mərkəzləri yaratsın və eyni zamanda, dediyim kimi, digər ölkələrlə bu təcrübəni bölüşsün. Ona görə gənclərlə çoxsaylı görüşlərim əsnasında mən onları həmişə biliklərə cəlb edirəm, dəvət edirəm ki, yaxşı oxusunlar, yaxşı peşəkar olsunlar və öz fəaliyyətləri ilə ölkəmizin inkişafına daha böyük xidmət göstərsinlər. Şadam ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Eyni zamanda, onu da bildirməliyəm ki, gənclər xoşagəlməz hallara qarşı da mübarizədə bizə böyük dəstək olurlar. Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda, vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək.

***-Cənab Prezident, son illərdə Azərbaycanda əhalinin sosial təminatı ilə bağlı dünyanın çox nadir ölkələrində rast gəlinən kompleks tədbirlər həyata keçirilir. Bu sahədə icra olunan layihələr barədə nə deyə bilərsiniz?***

-Sosial sahə daim prioritet sahə olub və mənim əvvəlki illərdə də çıxışlarımda daim bu məsələyə böyük diqqət yetirilib. Xüsusilə son müddət ərzində - keçən il və bu il sosial sahə daha da böyük prioritet kimi gündəlikdə mövcuddur. Təsadüfi deyil ki, ötən il müstəqillik dövründə ən geniş sosial paket təqdim olundu və uğurla icra edildi. Bu sosial paketin əhatə dairəsi çox geniş idi - 4 milyon 200 min insan dövlət tərəfindən sosial paketlə təmin edildi. Bunun içərisində minimum əməkhaqqının təxminən 2 dəfə, minimum pensiyanın 70 faizdən çox qaldırılması məsələləri var idi. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında lider dövlətdir. Müavinətlər qaldırıldı - bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə. Problemli kreditlərlə bağlı məsələ öz həllini tapdı. Yəni, biz bu məqsədlər üçün milyardlarla manat ayırdıq və dediyim kimi, 4,2 milyon insanın güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı.

Bu ilin əvvəlindən bu meyillər daha da güclənibdir. Minimum əməkhaqqı və orta əməkhaqqının, orta pensiyanın artırılması göz qabağındadır. Nəzərə alsaq ki, manatın məzənnəsi də sabitdir, insanların real gəlirləri artır, inflyasiya aşağı səviyyədədir. Ona görə bu sahədə bu il görülən işlər keçən il görülmüş işlərin məntiqi davamıdır. Bu ilin xüsusiyyəti ondadır ki, biz indi pandemiya dövründə yaşayırıq və pandemiyaya bizim cavabımız çoxşaxəli olmuşdur. O cümlədən sosial təminatla bağlı çox ciddi, operativ və məqsədə hesablanmış addımlar atılmışdır. Artıq sirr deyil ki, dövlət sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqı tam ödənildi, özəl sektorda təxminən 700 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi. Nəzərə alsaq ki, bu sektorda fəaliyyət göstərən insanlar işsiz qalmışdılar, işsiz vətəndaşların, aztəminatlı təbəqənin, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən insanların sosial təminatı təşkil edildi, hər birinə 190 manat vəsait ayrıldı. Bu kateqoriyadan olan insanların sayı az deyil, 600 mindir. Bu işlərin hamısı əlbəttə ki, böyük maliyyə resursları tələb edir.

Buna ünvanlı sosial yardım proqramını əlavə etsək, bu proqramla əhatə olunan insanların sayı kəskin artır. Hazırda 80 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə hər ay 220 manatdan çox vəsait ödənilir.

Eyni zamanda, ödənişli ictimai iş yerlərinin - 90 min iş yerinin açılması nəzərdə tutulur. Özünüməşğulluq proqramında 12 min insan əhatə olunur. Artıq biz bu proqramın bir hissəsini Dünya Bankı ilə birlikdə icra edirik. Yəni, bütövlükdə bu sahəyə ayrılan diqqəti və vəsaiti nəzərə alsaq, görərik ki, bu gün bizim üçün bu, prioritetdir və bu, belə də olmalıdır. Çünki pandemiyadan bütün dünya əziyyət çəkir, bütün ölkələr böyük çətinliklərlə üzləşiblər. İnkişaf etmiş ölkələrin bəzilərində iqtisadi tənəzzül 7-10 faiz səviyyəsindədir. Bu, hələ ilkin rəqəmlərdir. Azərbaycanda maliyyə sabitliyini qorumaq üçün bütün lazımi tədbirlər görüldü. Hər kəs bilməlidir ki, əgər maliyyə sabitliyi pozularsa, onda sosial proqramların icrasına da bizim imkanımız çatmayacaq.

Mən ilin əvvəlində və pandemiyanın artıq alovlanan dövründə demişəm ki, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək və biz bunu təmin edirik. Eyni zamanda, sosial infrastruktur layihələrinin heç biri ixtisar olunmayıb. Ona görə bu sahəyə göstərilən diqqət və əməli-praktiki addımlar bir daha bizim siyasətimizin mahiyyətini göstərir. Bir də onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Ardı Səh. 4

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər

*"Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq"*

Əvvəli Səh. 3

***- Cənab Prezident, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və innovasiyanın tətbiqi Sizin fəaliyyətinizin prioritet istiqamətlərindən biridir. Bu yaxınlarda CISCO şirkətinin rəhbərliyi ilə görüşdə də Sizin liderliyiniz və Azərbaycanda həyata keçirilən bu işlər çox yüksək qiymətləndirildi. İstərdik ki, bununla bağlı fikirlərinizi bölüşəsiniz.***

- Bilirsiniz, bu sahə bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda geniş vüsət almağa başlamışdır. Xatırlayıram, biz kosmik sənayenin yaradılması ilə məşğul olmağa başlayanda bəziləri təəccüb edirdi, bəziləri düşünürdü ki, Azərbaycan o qədər də böyük ölkə deyil, - kosmik klub dünya miqyasında çox məhdud bir klubdur, - və Azərbaycan üçün orada özünə yer tapmaq çətin olacaq. Ancaq həyat göstərdi ki, biz düzgün yoldaydıq. Çünki kosmik sənayenin yaradılması, üç peykin orbitə çıxarılması təkcə iqtisadi və digər maraqlarımızı təmin etmir, eyni zamanda, bu, kadrların hazırlanması, gənc kadrların yeni texnologiyalara sahib çıxması baxımından da çox önəmli idi. Kadr hazırlığı olmadan müasir texnologiyalar heç bir ölkədə inkişaf edə bilməz. Ona görə biz həm dövlət resurslarımızı bu istiqamətə cəlb etdik və çox düzgün proqram tərtib etdik, həm də kadr hazırlığı ilə əlaqədar əməli-praktiki addımlara start verdik. Çünki bax, bu gözəl DOST mərkəzinin timsalında görürük, əgər burada peşəkar kadr olmasa, bu mərkəz fəaliyyət göstərə bilməz. Azərbaycan əksər ölkələr kimi, texnologiyaları idxal edir. Ancaq bu texnologiyaları işlətmək, onları mənimsəmək, bu texnologiyalar əsasında yeni intellektual məhsul yaratmaq artıq kadr peşəkarlığından, kadr hazırlığından bilavasitə asılıdır.

Ona görə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı bütün addımlarımız düzgün idi və CISCO şirkətinin rəhbərləri ilə videokonfrans çərçivəsində keçirdiyim görüş də bunu bir daha göstərdi. Biz təkcə CISCO şirkəti ilə əməkdaşlıq etmirik, biz demək olar ki, dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən bütün aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik. CISCO şirkəti ilə biz, deyə bilərəm ki, artıq strateji tərəfdaşlıq əlaqələrinə yaxınlaşırıq. Əlbəttə ki, onların təklif etdiyi intellektual məhsul bizim gələcək inkişafımıza çox lazımdır. Misal üçün, biz hazırda ağıllı şəhər - "Smart City" layihəsi üzərində işləyirik. Bu layihənin ilkin təzahürləri artıq görünməkdədir. Biz daha uzağa gedərək artıq "Smart Nation" - yəni, "Ağıllı ölkə" proqramı üzərində işləməyə başlamışıq. Ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiq edilməsi bizim prioritet sahəmizdir.

Pandemiya dövründə, özünütəcrid şəraitində informasiya texnologiyaları olmadan iş görmək mümkün deyil. Misal üçün, mənim görüşlərim, videokonfrans şəklində keçirdiyim Zirvə görüşləri müasir texnologiyalar olmadan mümkün deyil. Ona görə hazırda həm iqtisadi sahədə, həm təhsil, səhiyyə, kənd təsərrüfatı sahələrində və digər sahələrdə, o cümlədən bizim su resurslarının nəzarəti, su balansının formalaşması və itkilərin azaldılması istiqamətində də məsələ qaldırıldı. Ona görə bu sahə, hər kəs bunu bilməlidir, gələcəyə atılan addımdır. Biz gecikə bilmərik, yubana bilmərik, geciksək uduzarıq. Ona görə bütün resurslarımızı, o cümlədən maliyyə, intellektual və kadr resurslarımızı səfərbər etmişik. Əminəm ki, gələcək illərdə Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində liderlik mövqelərini daha da möhkəmləndirəcək.

***- Cənab Prezident, şəhid ailələrinin sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində ölkəmizdə kompleks şəkildə tədbirlər həyata keçirildi. İstərdik bu barədə fikirlərinizi bölüşəsiniz.***

- Bu, daim diqqət mərkəzində olan məsələdir. Bu günə qədər 7600 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilibdir. Bu il şəhid ailələrinə verilən mənzillərin, evlərin sayı rekord həddə çatıb -1500 şəhid ailəsinə evlər, mənzillər veriləcək və bələliklə, növbədə duran şəhid ailələrinin sayı 2 mindən az olacaqdır. Ümid edirəm ki, maksimum iki il ərzində bütün şəhid ailələri dövlət tərəfindən evlərlə təmin ediləcəkdir.

Bununla paralel olaraq, biz minik maşınları da veririk - həm şəhid ailələrinə, həm də Qarabağ qazilərinə. Bu günə qədər 6 mindən çox minik maşını verilib, bu il də 400 maşının verilməsi nəzərdə tutulur. Deyə bilərəm ki, bu sahədə də Azərbaycan liderlik göstərir. Çünki dünyanın bir çox yerlərində müharibələr olub, münaqişələr, insan itkisi olub. Mən, əlbəttə, Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəməzdim, ancaq həqiqət ondan ibarətdir ki, Azərbaycanda müharibədən əziyyət çəkmiş, öz yaxınlarını itirmiş ailələrin dövlət tərəfindən dəstəklənməsi, hesab edirəm, ən yüksək səviyyədədir.

İndi bir daha demək istəyirəm ki, heç kimlə müqayisə aparmaq istəmirəm, amma baxın, Ermənistanda müharibədə ölənlər olubdur. Onlara mənzil verilir? Onlara avtomobil verilir? Yox. Orada pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir. Amma biz bütün bu işləri görürük və görməliyik. Bu, bizim mənəvi borcumuzdur. Mənim şəhid ailələri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, cəmiyyət üçün də, şəhid ailələri üçün də çox önəmlidir. Biz şəhidlərin ruhu qarşısında baş əyirik və öz işimizi təkcə sözlə yox, əməllə təsdiq etməliyik. Ona görə artıq 7600 şəhid ailəsinə verilən evlər, - bu il onların sayı 9 minə çatacaq,- bizim əməli işlərimizin gözəl nəticəsidir.

***- Cənab Prezident, Azərbaycanda koronavirusun qarşısının alınması ilə bağlı görülən işlər və həyata keçiriləcək tədbirlər barədə nə deyə bilərsiniz?***

- Koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni, pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi. Yenə də hər şey müqayisədə ölçülür. Əhalisinin sayı Azərbaycanla eyni olan inkişaf etmiş ölkələrdə vəziyyət necədir, Azərbaycanda vəziyyət necədir? O ölkələrin bəzilərində bu günə qədər 10 minə yaxın insan vəfat edi. Azərbaycanda vəfat edənlərin sayı kifayət qədər azdır. Eyni zamanda, qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olduq. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik.

Deyə bilərəm ki, səhiyyə sistemimizi qısa müddət ərzində yenidən qura bildik. Mən burada xüsusilə İcbari Tibbi Sığorta Agentliyinin və TƏBİB-in fəaliyyətini yüksək qiymətləndirirəm. Orada da fəaliyyət göstərənlərin mütləq əksəriyyəti gənclərdir və burada da gənclər göstərdilər ki, nəyə qadirdirlər. Çünki belə bir çətin şəraitdə heç bir ölkənin səhiyyə sistemi buna hazır deyildi. Belə bir çətin şəraitdə bütün təşkilati işləri görmək doğrudan da böyük nailiyyətdir. Xəstəxanaları müəyyən etmək, logistika işlərini təmin etmək, xəstələri regionlar üzrə bölmək, karantin rejimində saxlanılanların təminatını təşkil etmək, onlar üçün bütün bu təşkilati-logistik məsələləri həll etmək, xaricdən vətəndaşları təxliyə etmək - biz bütün bunları Operativ Qərargah çərçivəsində, o cümlədən həkimlərin və TƏBİB-in fəal iştirakı ilə təmin edə bilmişik. Ona görə biz artıq aprelin sonunda gördük ki, üç həftə ərzində dinamika müsbətdir, yoluxanların sayı sağalanların sayından azdır və biz yumşalma tədbirlərinə keçdik. Əfsuslar olsun ki, yumşalma tədbirləri yoluxanların sayına mənfi təsir göstərmişdir. Ancaq bu gün vəziyyət tam nəzarətdədir və bütün ölkələr artıq açılır. Hətta pandemiyanın geniş vüsət aldığı ölkələr də açılır və biz də yavaş-yavaş açılırıq. Amma vəziyyəti tam nəzarətdə saxlayırıq.

Bizdə hazırda 20-dən çox xəstəxana sırf koronavirusla bağlı fəaliyyət göstərir, orada ancaq koronavirus xəstələri müalicə olunur - hazırda 19 xəstəxanada. Çünki indi bəzi xəstəxanalarda artıq xəstə qalmır. Ancaq 20-dən çox xəstəxana hazırdır, modul tipli 10 xəstəxananın inşası başlamışdır, birinin açılışında mən iştirak etmişəm. Bu da bizə əlavə 2000 yataq verəcəkdir. Bütün tibbi avadanlıq təmin edilib, süni tənəffüs aparatları gətizdirilib, reanimasiyada kifayət qədər boş yerlərimiz var, yataqlar kifayət qədərdir, karantində saxlanılanların sayı xaricdən gələnlərin sayı ilə birbaşa əlaqəlidir. Çünki xaricdən təxliyə edilən vətəndaşları biz iki həftə karantində saxlayırıq. Deməliyəm ki, 20 mindən çox Azərbaycan vətəndaşı mütəşəkkil qaydada xaricdən təxliyə edilib. Biz bu işləri kortəbii görə bilmərik. Mütəşəkkil qaydada, qrafik üzrə, ölkələr üzrə bölgü aparılıbdır: hansı ölkədən nə vaxt, nə qədər Azərbaycan vətəndaşı gələcək. Bu işlər bu qaydada davam etdiriləcək. Ən çox təxliyə edilmiş vətəndaşlarımız Rusiyadan gəlib. Bu günə qədər Rusiyadan 6500 Azərbaycan vətəndaşı gəlib və bu proses davam etdirilir, ancaq dediyim kimi, mütəşəkkil qaydada. Hər kəs öz adını qeydiyyata salmalıdır, xüsusi portal da - "Evə gedirəm" mövcuddur. Ona görə təxliyə işləri də mütəşəkkil qaydada aparılacaq.

Karantin şəraiti çox gözəldir və mən karantində qalanlardan da çoxsaylı məktublar alıram, onları dördbeş ulduzlu otellərdə saxlayırıq. Biz özümüz indi tibbi maska, kombinezon, dezinfeksiya vasitələri istehsalına başlamışıq. Ona görə bu kompleks tədbirlər, əlbəttə ki, bizi böyük bəladan qoruya bildi. İndiki şəraitdə ki, artıq yumşalma prosesi gedir, əsas amil vətəndaşların məsuliyyəti olacaq. Mən bir daha demək istəyirəm ki, vətəndaşlar bu məsuliyyəti dərk etsinlər. Pandemiya başa çatmayıb, virus qeyb olmayıb, bu virus dolaşacaq. Ona görə hər kəs özünü, öz yaxınlarını qorumalıdır, öz məsuliyyətini hiss etməlidir və nizam-intizama da əməl etməlidir.

***- Cənab Prezident, belə bir çətin şəraitdə əhalinin sosial təminatı, pandemiyanın törətdiyi iqtisadi fəsadların aradan qaldırılması ilə yanaşı, Azərbaycan bir sıra xarici ölkələrə yardım da edir. İstərdik bu məsələ ilə bağlı da fikirlərinizi bildirəsiniz.***

- Mən hesab edirəm ki, bu, bizim apardığımız siyasətin tərkib hissəsidir. Çünki xarici siyasətə gəldikdə, biz həmişə əməkdaşlığa üstünlük vermişik və bunun faydasını görmüşük. Harada imkanımız olub, əgər imkanımız olubsa, kömək etməyə çalışmışıq və etmişik. Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu prinsip əsasında qazanılır. Ona görə xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır.

Biz indi iki təşkilata sədrlik edirik və bu iki təşkilatın Zirvə görüşünü keçirmişik - Türk Şurası və Qoşulmama Hərəkatı və ən yüksək səviyyədə. Qoşulmama Hərəkatının və Türk Şurasının yekun bəyannaməsində Azərbaycanın xüsusi rolu qeyd olundu. Biz hər bir işə çox məsuliyyətlə yanaşırıq və bizim sədrliyimiz formal xarakter daşımamalıdır və daşımır. Ona görə çətin gündə kimin imkanı varsa, kömək etməlidir, həyatda da, siyasətdə də. Bu, bizim, necə deyərlər, adət-ənənələrimizə də uyğundur. Ona görə bu gün bu yardımın göstərilməsi hesab edirəm ki, düzgün addımdır. Bu günə qədər biz 13 ölkəyə yardım göstərmişik və bu haqda ancaq son vaxtlar danışmağa başlamışıq. Biz təyyarələrlə yardımlar göndərmişik, yüzlərlə ton yardım göndərmişik. Azərbaycanda istehsal olunan dezinfeksiya vasitələri, qoruyucu vasitələr və digər əşyalar göndərmişik, amma bunu reklam etməmişik. Bunu mənəvi borc bilərək etmişik, o ölkələrə ki, onlar bizə müraciət edib. Biz bilirik, o ölkələrin maliyyə vəziyyəti imkan vermir ki, onlar lazımi tədbirləri görsün. Əminəm ki, bu yardım bir çox insanın həyatını xilas etdi. Əsas məsələ budur. Beləliklə, 13 ölkəyə artıq yardım göstərilib, o cümlədən üç beynəlxalq təşkilata yardım göstərilibdir. Bu, bir daha bizim məsuliyyətimizi göstərir.

Təsadüfi deyil ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan ölkədir. Əks təqdirdə, biz səkkiz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməzdik. Əks təqdirdə, Qoşulmama Hərəkatının yekdil qərarı ilə, 120 ölkənin qərarı ilə sədr seçilməzdik. Çünki mən demişəm, bu təsisatda bir çox ölkələr cəmləşir ki, bir-biri ilə yola getmir. Amma onların hər biri Azərbaycanı dəstəklədi. Nəyə görə? Çünki biz məsuliyyətli ölkəyik, biz özümüzə hörmət edirik, öz ləyaqətimizi qoruyuruq, tərəfdaşlara da hörmət edirik. Yardım edəndə bunu elə formada edirik ki, bu, yardımı alan üçün də məqbul olsun və öz işimizi bu istiqamətdə davam etdirəcəyik.

Pandemiya dövründə həm insanlar, həm də ölkələr özünün əsl simasını üzə çıxardı. Elə insanlar var ki, pandemiya dövründə onlara əl vermək böyük günah olar. Elə ölkələr var ki, pandemiya dövründə özlərinə qapanıblar və xüsusilə, ilkin mərhələdə bəzi addımlar atıblar və indi yəqin utanırlar. Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqləyib.

***- Cənab Prezident, suallarımızı ətraflı cavablandırdığınız üçün Sizə minnətdarıq, çox sağ olun.***

- Sağ ol, təşəkkür edirəm.

## Dmitri Savelyev: “Hər hansı xalqda millətçiliyin hər hansı təzahürü qəbuledilməzdir”



Elə məsələlər var ki, onlara münasibətdə güzəştə getmək olmaz: istər faşizm üzərində Böyük Qələbənin 75 illiyinin bütün dünyada qeyd edildiyi günlərdə, istərsə də hər hansı başqa bir gündə. “Ölməz alay” aksiyası çərçivəsində ekstremistlər tərəfindən nasist canilərin fotoşəkillərinin yerləşdirilməsi barədə saytlarda yayılan xəbərlər tarixi hadisələrin dəyərləndirilməsində vurğuları qarışdırmağın yolverilməzliyi haqda bir daha düşünməyə vadar edir. Axı hətta faşizmdən ağır itkilər almış bəzi postsovet ölkələrində artıq çoxdan bəri məhz belə hadisələr dövlət siyasəti səviyyəsində baş verir.

Rusiya Dövlət Dumasının deputatı və Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev qeyd edib ki, İkinci Dünya müharibəsi haqqında tarixi həqiqətlərə siyasi məqsədlər üçün cinayətkarcasına manipulyasiyalar son 75 ildir davam edir. Onun sözlərinə görə, Qərb siyasətçiləri faşizm üzərində Qələbədə Sovet İttifaqının rolunu azaldaraq dünyaya öz nöqteyi-nəzərlərini zorla qəbul etdirmək istəyirlər. Dmitri Savelyevin fikrincə, “tarixin belə “yenidən yazılmasının” məqsədi bütün xalqlarımızı birləşdirən simvolu - Böyük Qələbəni məhv etmək, postsovet məkanı ölkələrini, əsasən də Rusiyanı dünya siyasətinin hüquqsuz kölləsinə çevirməkdir. Bizim ölkələrimizin möhkəmlənməsi, onların fasiləsiz inkişafı, əməkdaşlığı, dünyada nüfuzunun artması Qərbdə çoxuna sərf eləmir”.

Dmitri Savelyev tarixi saxtalaşdırılmaların təhlükəsinin də adını çəkib. Onun sözlərinə görə, siyasi ab-havanın mürəkkəbləşməsi və beynəlxalq əməkdaşlığın parçalanması yeni münaqişələrə səbəb ola bilər. Rusiyalı parlamentari hesab edir ki, sülhün başlıca zəmanəti faşizm üzərində Qələbənin nəyin bahasına başa gəlməsi haqda xatirənin qorunması və onunla bağlı faktları hər hansı şəkildə təhrif etmək cəhdlərinə qarşı daimi mübarizədir.

Dmitri Savelyev belə dəyərlərin dəyişik salınması və Böyük Vətən müharibəsi haqqında həqiqətlərin yeni nəslin gözündə bağışlanmaz dərəcədə saxtalaşdırılmasına nümunə olaraq, Ermənistanda milli qəhrəman dərəcəsinə qaldırılan kollaborasionistlər Njde və Dronun şöhrətləndirilməsini misal çəkib.

Rusiyalı siyasətçi erməni xalqının İkinci Dünya müharibəsi dövründə əbədi qəhrəmanlığını xarakterizə edən bəlağətli rəqəmlər misal gətirib. Faşizmə qarşı mübarizədə 200 mindən artıq erməni həlak olub, 103 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 70 min nəfər orden və medallarla təltif edilib. Lakin bu həqiqi qəhrəmanların tərifləmməsi əvəzinə hərbi cani olan Njde nümunə gətirilir! “Ermənistanın müasir siyasi elitası tamamilə bilərəkdən tarixi həqiqəti Qərb “sifarişçilərinin” xeyrinə manipulyasiya edir. Onların ötəri siyasi və iqtisadi mənfəət hərisliyi öz xalqlarının həyatına görə məsuliyyət hissini üstələyir”, - deyə Dmitri Savelyev qeyd edib.

Rusiyalı deputat Böyük Qələbənin 75 illiyinə həsr olunan onlayn-konfransda Ararat Mirzoyanın dediyi sözləri də şərh edib. Ermənistan parlamentinin spikeri bəyan etmişdi ki, nasistlərlə Qaregin Njde arasında paralellər yersizdir. Dmitri Savelyev deyir: “Njdenin cinayətlərinin təkzibedilməz sübutları mövcuddur. Buraya həm Qızıl Ordunun arxa cəbhəsində təxribatçılıq işi ilə məşğul olan diversantların hazırlığı, həmçinin Sovet İttifaqına qarşı vuruşan, 1942-ci ildə yaradılmış erməni legionunun yaradılması aiddir. Njde özünün hərbi cinayətlərinə görə layiqincə məhkum edildi və ömrünü həbsxanada başa vurdu. Və bu faşist əlaltısına Ermənistanın hakimiyyət orqanları Yerevanın mərkəzində təmtəraqlı abidə qoyur, üstəlik bizə onun bioqrafiyasını öyrənməyi məsləhət görürlər!”.

Savelyev “Sexakronizmi” - Njdenin hazırladığı və təbliğ etdiyi millətçilik ideologiyasını da diqqətdən kənarda qoymayıb. Bu ideologiyaya görə hər bir erməni üçün ali dəyər onun milləti olmalıdır. Dmitri Savelyev nasizmin və ekstremizmin hər hansı formasına kəskin mənfi münasibət bildirib. Rusiyalı siyasətçi deyib: “Ümumi fəlakət anında xalqların birlikdə davam gətirməkdən ötrü faşizmə qarşı birləşdiyi vaxtda Njde nasist Almaniyası ilə əməkdaşlıqdan faydalanmağa çalışırdı. “Ermənistanın ən yaxşı övladı” belədirsə, bu, ölkə üçün rüsvayçılıqdır. Nasizm hər hansı xalqda özünün hər hansı təzahüründə qəbuledilməzdir”.

Dövlət Dumasının deputatı Ermənistanın hazırkı hakimiyyət orqanlarının Njdenin qəhrəmanlaşdırılması işində öz sələflərinin kursunu dəstəkləmələrinin mümkün səbəblərini də izah edib. Dmitri Savelyev əminliklə deyib: “Məlumdur ki, bu yaxınlarda baş nazir Nikol Paşinyanın babasının faşist Almaniyasının tərəfdarı olması barədə bəzi sübutlar üzə çıxıb. Bu faktlar ətraflı yoxlama və sənədlərə əsaslanma tələb edir. Amma Paşinyanın KİV-lərdə verilən suallara cavab olaraq susması - bu, artıq ən bəlağətli cavabdır. Erməni siyasətçilərin hansı siyasi və ya şəxsi motivlər irəli sürməsindən asılı olmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda bir müsahibəsində dediyi çox tutarlı “Ermənistanın hakimiyyəti dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalacaq” ifadəsi şübhəsizdir.

## “İnsan alverinin başında duranlardan biri də Əli Kərimlidir”



“Bu gün miqrant alveri və insan alverinin başında Əli Kərimli dayanıb”. SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının müzakirəsi zamanı millət vəkili Siyavuş Novruzov deyib. O bildirib ki, Azərbaycan vətəndaşları saxta sənədlərlə Avropaya satılır: “Bu gün insan alveri ilə təkcə cinayətkar qruplar deyil, siyasi partiyalar da məşğuldur. İnsan alverinin başında duranlardan biri də Əli Kərimlidir. İnsan alveri təkcə hansısa təcavüz, cinsi istismar olunması deyil, həm də miqrant alveridir. Məsələn, Əli Kərimli saxta sənədlərlə Azərbaycan vətəndaşlarını Avropaya satır. Bunlar təkcə qadınları deyil, miqrant adı altında kişiləri də Avropaya satır. Siyasi partiyalarda olan bəzi ünsürlər günahı bir-birinin üzərinə atır. Milli Koordinatorun gələcək hesabatlarında bunlar da öz yerini almalıdır. Azərbaycan xalqı digər insan alverçiləri ilə yanaşı, miqrant alveri ilə məşğul olanları da tanımalıdır”.

## “İnsan alveri qurbanlarının işə cəlb edilməsi zəruridir”



“Ölkəmizdə insan alverinə qarşı mübarizə istiqamətində görülən işlər yüksək xətlə davam etməkdədir”. SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının müzakirəsi zamanı Sədrin müavini Adil Əliyev deyib. O qeyd edib ki, Milli Məclisin qarşısına qoyulmuş ən mühüm məsələlərdən biri də cəmiyyətin inkişafı ilə bağlı zəruri addımların atılmasıdır: “Bu gün yetkinlik yaşına çatmayanlar insan alverinin qurbanına çevrilir. Son günlər 4 yeniyetmə qızın digərini döyməsi ilə bağlı videolar sosial şəbəkələrdə yayılır. İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin “Qaynar xətti”nin ictimaiyyətə təqdim edilməsi üçün işlər görülməlidir. Çünki bu “Qaynar xətt” əhali arasında kifayət qədər tanınmır. Aidiyyəti dövlət qurumları ilə razılaşdırmaqla insan alveri qurbanlarının işə cəlb edilməsi də zəruridir”.

## Elmar Məmmədyarov və Sergey Lavrov arasında telefon danışığı olub



Mayın 19-da Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun rusiyalı həmkarı Sergey Lavrov ilə telefon söhbəti olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında baş tutmuş telefon danışığından sonra verilmiş tapşırıqlara uyğun olaraq, Rusiya Federasiyasının Dağıstan Respublikasında Azərbaycan vətəndaşlarının yığılması ilə əlaqədar vəziyyəti və məsələnin həlli üçün hər iki ölkə tərəfindən əlaqəli şəkildə atılmalı addımları müzakirə ediblər.

Tərəflər ikitərəfli strateji münasibətlərin inkişafı, o cümlədən iqtisadi-ticari əlaqələrin, yükdaşımaların genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi üzrə fikir mübadiləsi həyata keçiriblər. Elmar Məmmədyarov həmkarını ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirdiyi son videokonfrans formatında görüş barədə məlumatlandırıb.

## “Paşinyan Azərbaycan Prezidenti tərəfindən siyasi zərbə alıb”



“Erməni mətbuatında Azərbaycan Xalq Cümhuriyyətinin banisi Paşinyanın babası ilə müqayisə olunur. İttiham belə qoyulur ki, mənim babam faşizmə xidmət edirsə, sizin də baniniz faşistlərlə əməkdaşlıq edib”. SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında gündəliyin müzakirəsi zamanı Milli Məclisin sədr müavini Fəzail İbrahimli deyib.

O bildirib ki, bu, Baş nazir Nikol Paşinyanın sayıqlamasıdır: “Paşinyan Azərbaycan Prezidenti tərəfindən siyasi zərbə alıb. Rəsulzadə Azərbaycan dövlətinin yaradıcılarından biridir. Baba Paşinyan kimdir?! Faşistlərə əsir düşəndən sonra faşizmə qulluq edən kommunistdir! Paşinyanın babası 1943-cü ildə imdad diləyib və uğursuz nəticə əldə edib. Rəsulzadə ilə Paşinyanın babası müqayisə edilə bilməz. Paşinyana faşistpərəst adı verirlər. Pərəst o adam olur ki, istədiyi ideologiyaya sevinir. Paşinyanda pərəstiş olmayıb, o, xəyanət edib və ideologiyadan istifadə edib”.

## Avropanın media üfüqlərində Paşinyan üçün biabırçı həqiqətin zəfər yürüşü

Macarıstanın ingilisdilli populyar “Daily News Hungary” nəşrində Avropa ictimaiyyətini Ermənistanın indiki baş nazirinin babası, “igid” faşist polisi Nikol Vartanoviş Paşinyanın sərgüzəştləri haqqında məlumatlandıran məqalə dərc edilib (bax:https://dailynewshungary.com/news_to_-go/collaboration-of-nikol-pashinyans-grandfather-with-fascists-revealed/).

AZƏRTAC xəbər verir ki, ilk dəqiqələrdən çox böyük baxış sayı toplayan məqalədə Ermənistan hökumətinin başçısının babasının qaranlıq keçmişini ifşa edən arxiv məlumatlarına istinad edilir.

Xatırladaq ki, Ermənistanın baş naziri öz babasının faşist cəza dəstəsində xidmət etməsi faktını təkzib etməyə çalışıb, ancaq bunu o qədər yöndəmsiz, inandırıcı olmayan formada edib ki, erməni bloqerlər özləri şəxsi jurnalist araşdırması aparmağı qərara alıb və kollaborasionisti ifşa ediblər. Ermənistanın hökumətinin başçısı həm də ona görə pis vəziyyətə düşüb ki, o, faşistlərin əlaltıları olmuş Njde ləqəbli Qaregin Ter-Artünyanı və Dro ləqəbli Drastamat Kanayanı xüsusi canfəşanlıqla müdafiə edirdi (və hələ də müdafiə edir). Təkcə bu fakt müəyyən şübhələr doğurur. Axı Böyük Vətən müharibəsinin şanlı veteranının nəvəsi onun doğma babasına qarşı vuruşmuş faşist əlaltıları haqqında yüksək fikirdə olduğunu deyə bilməzdi. Nə isə uyğunsuzluq alınır.


DAILY NEWS HUNGARY | POLITICS | BUSINESS | SOCIETY | SPORT | CULTURE | SPECIAL HUNGARY | WORLD
Coronavirus in Hungary | coronavirus | Budapest | migration | labour market | tourism

Collaboration of Nikol Pashinyan's grandfather with fascists revealed

No comments



SOCIAL LINKS
Facebook Twitter Instagram LinkedIn Reddit RSS

RECENT POSTS
UK records lowest death increase since lockdown!
COVID-19 vaccine trial by Moderna shows positive early results
Orbán cabinet to fund establishment of traditional Chinese medicine department at Semmelweis university
Did police officers put a woman down in

Published on 18 May 2020

It has become known that grandfather of Armenia's Prime Minister Nikol Pashinyan served fascists and collaborated with them, APA reports citing

Elədir ki var! Sən demə, nəvə Nikol Paşinyan faşist tör-töküntülərinin tərifini ona görə göylərə qaldırır ki, onlar onun doğma babasının bilavasitə komandiri olublar. Bu da təsadüfi deyil ki, isterikaya düşmüş nəvə Nikol Paşinyan Azərbaycan xalqının böyük oğlu Məmməd Emin Rəsulzadənin guya onun babasının ağaları ilə əməkdaşlıq etməsi haqqında feyk-xəbərlər yaymağa başlayıb. Lakin tarixçilər tezliklə bu yalanı ifşa edərək göstəriblər ki, Rəsulzadə nəinki öz xalqına qarşı vuruşmayıb, ümumiyyətlə nasistlərlə əməkdaşlıq etməyib, əməkdaşlıq haqqında təklifi rədd edib və bu, onun üçün baş ucalığıdır!

Bütün bunlar artıq MDB ölkələrinin ictimaiyyətinə məlumdur. Və indi dünya ictimaiyyətinin növbəsi yetişib ki, onlar da nasizmin Yerevandakı tərəfdarlarının əsl mahiyyətini bilsinlər. “Daily News Hungary” nəşrində dərc edilmiş məqalə Avropaya həqiqətin pəncərəsi açacaq. Bu pəncərə birincidir, amma yəqin ki, sonuncu olmayacaq.

# Vətəndaş mövqeyi:

# "Cənab Prezident, xalqımızın firavanlığı naminə yorulmadan çalışdığınıza görə Sizə minnətdarıq"

***Bütün dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması üçün gördüyü işlər Azərbaycan vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız dövlətimizin başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona ünvanladıqları çoxsaylı minnətdarlıq məktublarında ifadə edirlər.***



AZƏRTAC Prezidentin saytına istinadla dövlətimizin başçısına ünvanlanan məktubların daha bir qismini təqdim edir.

Biləsuvar rayonunun Ağayrı kəndindən Əlifağa Haxverdiyev yazır: "Hörmətli cənab Prezident, xalqımızın bu çətin və ağır günlərində Sizin hər addımınız və gördüyünüz tədbirlər təqdirəlayiqdir. Sizin göstərişinizlə aztəminatlı ailələrə yardımın verilməsi çox humanist bir qərardır. Mən yaşlı bir vətəndaş kimi özümə borc bildim ki, yaşadığım kəndin sakinləri adından Sizə və ailənizə təşəkkürümü çatdırım. Mən və ailəm hər gün namazda Sizə dua edirik. Allah Sizə hər zaman cansağlığı qismət etsin, bəla görməyəsiniz.

Cənab Prezident, Ulu Tanrı bütün işlərinizdə Sizə yardımçı olsun. Sizin hər bir uğurlu işinizə ürəkdən sevinirik".

İstanbul şəhərindən dövlətimizin başçısına məktub yazan tələbə Firuzə Rəcəbova qeyd edir: "Hörmətli cənab Prezident, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi hakimiyyətə gəldiyiniz gündən bəri dəqiq hədəflərə hesablanmış uğurlu daxili və xarici siyasətinizi dəstəkləyir və alqışlayıram. COVID-19 infeksiyasının qlobal miqyasda yayıldığı şəraitdə Sizin rəhbərliyinizlə həyata keçirilən effektiv dövlət proqramları sayəsində ölkəmiz bu virusdan daha az zərər görən dövlətlər sırasındadır. Sizin humanizm prinsiplərinə əsaslanan sosial siyasətiniz nəticəsində vətəndaşların pandemiya dövründə sağlamlığının və rifahının qorunması yüksək səviyyədə təmin edilməkdədir. Aztəminatli ailələrin müavinətlərinin artırılması, işsizlər üçün əlavə müavinətlərin təyin edilməsi, bu çətin dövrdə ölkə iqtisadiyyatının inkişafının qorunub saxlanılması istiqamətində qəbul etdiyiniz qərarlar, xaricdə olan soydaşlarımızın respublikamıza gətirilməsinin yüksək səviyyədə təşkili xalqımız tərəfindən rəğbətlə qarşılanır.

Möhtərəm cənab Prezident, bu çətin günlərdə xalqa dəstək olduğunuza, xalqımızın firavanlığı naminə yorulmadan çalışdığınıza görə Sizə və ən yaxın silahdaşınız Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz adımdan və ailəmin adından təşəkkür edirəm.

Əziz Prezidentim, mən Türkiyənin İstanbul universitetində hüquq təhsili alan gənc azərbaycanlı olaraq Sizinlə qürur duyuram. Uca Tanrı Sizi və Azərbaycanımızı qorusun! Biz birlikdə güclüyük! Biz Sizinlə güclüyük!".

Zəngilan rayonundan məcburi köçkün Bəxtiyar Həsənov: "Hörmətli cənab Prezident, bütün dünyanın koronavirus pandemiyasından əziyyət çəkdiyi bir vaxtda Sizin qabaqlayıcı tədbirləriniz xalqımızı bu xəstəlikdən qorudu. Hamımız gördük ki, Siz gecə və gündüz yorulmadan çalışdınız, bütün gücləri səfərbər etdiniz, "Biz birlikdə güclüyük!" çağırışı etdiniz. Bu tədbirlər sayəsində ölkəmizdə koronavirusdan itkilər o qədər də çox olmadı.

Cənab Prezident, Siz həmişə Azərbaycan xalqının yanında olmusunuz, onun sosial vəziyyətinin yaxşılaşdırılması üçün hər cür şərait yaratmısınız. Bu dəfə də Sizin uzaqgörən siyasətiniz sayəsində bu bəladan alnıaçıq çıxacağıq. Biz, məcburi köçkünlər həmişə Sizin yanınızdayıq və bizim üçün yaradılan şəraitə görə Sizə minnətdarıq. Pandemiya vaxtında görülən bütün işlərə görə Sizə və Mehriban xanıma təşəkkürümüzü bildiririk".

Cəbrayıl rayonundan 7-ci sinif şagirdi Ləman Həşimova: "Möhtərəm cənab Prezident, mən bu məktubu Sizə yazmaq üçün çox fikirləşdim. Hansı sözlərdən istifadə edəcəyim, cümlələrimi necə quracağım haqqında çox düşündüm. Amma sonda anladım ki, mənim Sizə olan minnətdarlığımı heç bir söz, heç cümlə tam izah edə bilməz. Bu dəqiqə dünyanın bütün ölkələri COVID-19 pandemiyası ilə mübarizə aparır. Sizin sayənizdə Azərbaycan bu mübarizə kitabının səhifələrində adını qızıl hərflərlə yazacaq. Vaxtında verdiyiniz qərarlar nəticəsində indi Azərbaycan xalqının üzündən təbəssüm əskik olmur. Siz bu çətin dövrdə hər bir vətəndaşa ayrı-ayrılıqda diqqət göstərdiniz. Çox sağ olun. Allah Sizin kölgənizi başımızın üzərindən əskik etməsin!".

Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın 5-ci sinif şagirdi Fərəh Əlizadənin məktubunda deyilir: "Möhtərəm cənab Prezident, mən bu məktubumla Sizə sonsuz minnətdarlığımı bildirirəm. Siz bu gözəl, bol nemətli, bizə atalarımızdan yadigar qalan torpaqları qoruyur, onun inkişafı üçün çox çalışırsınız. Təəssüf ki, 2020-ci ildə Yer üzünə bir bəla gəldi: COVID-19. Getdikcə bu virus bütün dünyaya yayılır, təəssüf ki, artıq Azərbaycanda da mövcuddur. Lakin Sizin tədbirləriniz nəticəsində COVID-19-un yayılması digər ölkələrə nisbətən Azərbaycanda azdır. Tətbiq olunan karantin rejimində evdə qaldığımız müddətdə "virtual məktəb" layihəsini həyata keçirərək bizi təhsildən geri qoymursunuz. Xəstələrimizin qayğısına qalır, onlar üçün əlinizdən gələn köməyi əsirgəmirsiniz. COVID-19-la mübarizə müddətində imkansızları maddi yardımla təmin edir, onları qoruyursunuz. Biz Sizin köməyinizlə virusa qalib gələcəyik".

Laçın rayonundan məcbur köçkün Afil İsmayılov dövlətimizin başçısına minnətdarlıq edərək yazır: "Hörmətli cənab Prezident, mən böyük qürur hissi duyur və çox sevinirəm ki, Siz bütün Azərbaycanı koronavirus bəlasından az itkilərlə qurtarmaqdasınız. Karantin dövründə ölkə üzrə ehtiyacı olanlara, qocalara dövlət tərəfindən ərzağın və maddi yardımların verilməsi humanist addım olaraq əhali tərəfindən alqışlandı.

Allah Sizi, dövlətimizi, xalqımızı bu böyük bəladan qorusun!. Sizə səmimi təşəkkürümü bildirirəm. Cənab Prezident, biz Sizinləyik və hər zaman Sizinlə olacağıq!".

Bakının Nizami rayonunun Keşlə qəsəbəsindən Validə Xəlilova: "Hörmətli cənab Prezident, müqəddəs Ramazan bayramı münasibətilə Sizi və Mehriban xanımı səmimi qəlbdən təbrik edirəm. Qoy, bu müqəddəs bayramın gəlişi ilə bütün bəlalar, eləcə də koronavirus xəstəliyi yurdumuzdan uzaq olsun, ölkəmizə ruzi-bərəkət, yeni parlaq dövr ayaq açsın. Ramazan bayramı Sizin ailəniz başda olmaqla bütün ailələrə sevinc və xoşbəxtlik gətirsin. Möhtərəm Prezident, mən Rusiya vətəndaşıyam. Bir müddətdir ki, Bakıdayam. Rusiyada yaşayan bütün azərbaycanlılar adından Sizə təşəkkür edirəm. Sizin koronavirusla bağlı gördüyünüz tədbirlər təqdirəlayiqdir. Biz bir daha gördük ki, xalqımızın sağlamlığı, firavan yaşayışı Sizin üçün hər şeydən qiymətlidir. Nə yaxşı ki, varsınız".

Xızı rayonunun Giləzi qəsəbəsinin 89 yaşlı sakini Hacıxıdır Cabarov: "Hörmətli cənab Prezident, Sizin düşünülmüş siyasətiniz sayəsində Azərbaycan inamla öz gələcəyini qurur, müstəqilliyinin və beynəlxalq nüfuzunun möhkəmləndirilməsində böyük uğurlar qazanır. Bu gün Azərbaycan öz sabitliyini və inkişafını təmin edən ölkədir. Bu sabitlik, bu inkişaf koronavirus pandemiyasının öhdəsindən gəlməyə də kömək etdi.

Cənab Prezident, mənim 89 yaşım, 7 nəvəm və 7 nəticəm var. Yorulmaz fəaliyyətinizə görə böyük ailəmin adından Sizə minnətdarlığımı bildirirəm. İnşallah, Sizinlə Qarabağda da zəfər yürüşü keçirəcəyik".

*Ardı Səh. 7*

# Vətəndaş mövqeyi:

## “Cənab Prezident, xalqımızın firavanlığı naminə yorulmadan çalışdığınıza görə Sizə minnətdarıq”

Əvvəli Səh. 6

Lerik rayonunun Siyov kəndindən Səxavət Bayramov: “Cənab Prezident, Sizin rəhbərliyinizlə koronavirus pandemiyasına qarşı aparılan mübarizə sahəsində Azərbaycan dünyanın inkişaf etmiş ölkələrini geridə qoydu. Məhz buna görə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Azərbaycanın bu mübarizədə nümunəvi ölkə olduğunu bildirərək, Sizə iki dəfə təşəkkür məktubu ünvanladı və bir sıra ölkələrə məhz respublikamızın bu sahədəki təcrübəsindən yararlanmağı tövsiyə etdi.

Cənab Prezident, gərgin fəaliyyətiniz nəticəsində qazanılan uğurlara görə Sizə dərin təşəkkürümü bildirirəm. Biz Sizin rəhbərliyinizlə hər zaman güclüyük!”.

Lənkəran rayonunun Havzava kəndinin sakini Sərdar Fərəcov: “Cənab Prezident, mənim 78 yaşım var, təqaüdçüyəm. İki oğlum zabitdir, digər bir oğlum isə Aprel döyüşlərinin iştirakçısıdır. Siz vətəndaşlara həmişə diqqət və qayğı ilə yanaşmısınız. Hazırda bütün dünyada COVID-19 virusu can almaqda davam edir. Siz virusun Azərbaycanda yayılmasının qarşısını almaq üçün ciddi qabaqlayıcı tədbirlər gördünüz. Buna görə Sizə minnətdarlığımı bildirirəm. Siz bu çətin günlərdə əhalinin bütün təbəqələrindən olan insanların sosial vəziyyətini nəzərə alıb onlara qayğı göstərdiniz. Yaşlı insanlara daha çox yardımlar edilir. Onların tibbi və ərzaq ehtiyacları təmin olunur. Hətta işsiz insanlar da diqqətdən kənarda qalmadı. Onlar üçün birdəfəlik vəsait ayrıldı. Sizin müdrikliyiniz, humanistliyiniz qarşısında baş əyirik. Siz hər bir vətəndaşın yanındasınız. Biz Sizinlə fəxr edirik. Allah Sizə uzun ömür versin!”.

Tovuz rayonunun Qovlar şəhərindən Taleh Allahverdiyev: “Hörmətli cənab Prezident, dünyanı bürümüş COVID-19 infeksiyasının Azərbaycanda pandemiya halına çevrilməsinin qarşısının alınmasında apardığınız məqsədyönlü siyasətə və həyata keçirdiyiniz qətiyyətli tədbirlərə görə Sizə təşəkkürümüzü bildiririk. 2020-ci ildə bəşəriyyət, o cümlədən də doğma Vətənimiz pandemiya təhlükəsi ilə qarşılaşdı. Dünyanı bürümüş siyasi və iqtisadi çətinliklərə baxmayaraq, məhz Sizin apardığınız müdrik və uzaqgörən siyasət nəticəsində Azərbaycanda pandemiyanın yayılmasının qarşısı alındı. Sizin iradənizə, müdrikliyinizə və fenomen rəhbərlik istedadınıza arxalanaraq inanırıq ki, ölkəmiz bu çətin vəziyyətdən də şərəflə çıxacaq. Ölkəmiz üçün mürəkkəb dövrdə Siz öz əzmkar fəaliyyətinizlə Azərbaycan xalqının yanında olduğunuzu, daim hər bir vətəndaşı düşündüyünüzü və onun qayğısına qaldığınızı bir daha sübut etdiniz. Sizin tükənməz səyləriniz sayəsində minlərlə həmvətənimizin həyatı bu bəladan xilas olundu. Ölkəmizin keçdiyi bu çox mürəkkəb dövrdə xalqımıza göstərdiyiniz qayğı və diqqət, insanların sosial təminatının yaxşılaşdırılması ilə bağlı imzaladığınız Sərəncamlar dövlət-vətəndaş birliyinin əsl təzahürüdür.

Cənab Prezident, dünyanın bəlasına çevrilən COVID-19 ilə mübarizədə xalqın yanında olmağınızı bütün Azərbaycan xalqı kimi bizim kollektivimiz də minnətdarlıqla qəbul edir və bu çətin, gərgin işlərinizdə Sizə yeni uğurlar arzu edirik”.

Masallı rayonundan Samit Nuriyev yazır: “Möhtərəm cənab Prezident, biz masallılılar həmişə Sizi dəstəkləyirik. Çünki Siz ən ağır günlərdə xalqla olub, həmişə vətəndaşlara dəstək göstərmisiniz. Koronavirus pandemiyasının dünyanı ağuşuna aldığı bir vaxtda Siz yenə də bizimləsiniz. İnsanların sağlamlığını qorumaq üçün ölkəmizdə xüsusi karantin rejimi tətbiq etdiniz. Biz yaxşı başa düşürük ki, sağlam qalmaq və normal həyatımıza qayıtmaq üçün özümüzü müvəqqəti olaraq təcrid etməli və evdə qalmalıyıq.

Cənab Prezident, bu çətin dönəmdə əhalinin həssas qrupuna aid olan insanlara göstərdiyiniz dəstəyə görə Sizə minnətdarıq. Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var”.

Qax rayonunun sakinləri Ağa Ramazanov, Bahar Həsənova, Elnur Məmmədli, Ayxan Abdullayev, Rövşən İbrahimov və Elnur Əhmədli yazırlar: “Hörmətli cənab Prezident, xalqımız əsl imtahan qarşısında olsa da, Sizin sayənizdə bu imtahandan yaxşı nəticələr əldə edir. Ən güclü ölkələri belə sarsıtmış koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması, itkilərin az olması və yoluxanların sağalma statistikası hamımızı sevindirir, yəni, daha da pis nəticələr ola bilərdi. Baş verənlər göstərir ki, bütün bunlara Sizin vaxtında gördüyünüz qabaqlayıcı tədbirlər, hazırda bu sahədə aparılan profilaktik işlər, səhiyyəmizin qısa zamanda bu bəlaya qarşı hazır vəziyyətə gətirilməsi nəticəsində nail olunmuşdur. Siz bu çətin günlərdə əhalinin imkansız təbəqəsini də unutmamısınız. Müavinətlərin, maddi yardımların verilməsi məhz Sizin təşəbbüsünüz və iradəniz sayəsində həyata keçirilir. Çox sağ olun ki, xalq üçün belə böyük işlər görürsünüz”.

Bakı şəhərindən Kəmalə Bilalova: “Hörmətli cənab Prezident, Sizə ünvanladığım bu məktubda bildirmək istəyirəm ki, biz Sizin timsalınızda xalqını sevən və ona dəyər verən bir dövlət başçısı görürük. Pandemiya təhlükəsi üzündən karantin rejiminə əməl etdiyimiz, evdə qaldığımız bu günlərdə Sizin televiziya ekranlarından səslənən “Azərbaycan xalqının sağlamlığı hər şeydən önəmlidir” sözləriniz bir vətəndaş, bir ana, bir nənə, bir müəllim kimi qəlbimi fəxarət və qürur hissi ilə doldurur, gözlərimi yaşardır. Nə yaxşı ki, Azərbaycan xalqının Sizin kimi Vətənini sonsuz məhəbbətlə sevən, xalqına böyük dəyər verən bir Prezidenti var. Biz Sizi sevirik və hər zaman Sizi dəstəkləyirik. İnanırıq ki, Azərbaycanın daha parlaq gələcəyi üçün əlindən gələni əsirgəməyən Prezidentimiz Qarabağımızı bizə qaytaracaq. Biz Sizinlə birlikdə güclüyük!”.

Neftçala rayonunun sakinləri Vidadi Hüseynov, Sehran Əliyev, Arif Nağıyev və Dadaşbala İsmayılov yazırlar: “Hörmətli cənab Prezident, ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısı olaraq Sizin respublikamızın inkişafı yolunda gördüyünüz işlər təqdirlə qarşılanır. Son zamanlar bəşəriyyətin üzləşdiyi COVID-19 pandemiyasının yayılması ilə əlaqədar Sizin çevik və operativ qərarlarınız insanlarımızı bu böyük bəladan çox az itki ilə qurtardı. Bu işlərə görə Sizə Neftçala rayonunun sakinləri adından dərin hörmət və minnətdarlığımızı bildiririk. Hər zaman Sizin daxili və xarici siyasətinizi bəyənirik. Allah Sizi qorusun! Uğurlarınız bol olsun!”.

Cəlilabad rayonunun sakinləri Heydər Miriyev, Qardaşxan Qasımov, Şəfa Sadıqov və Xəyal Xəlilov yazırlar: “Hörmətli cənab Prezident, dünyada geniş miqyas almış və hər gün minlərlə can alan koronavirus pandemiyasının ölkəmizə daha az ziyan vurmasının səbəbini hamımız Sizin vaxtında gördüyünüz tədbirlərdə və karantin rejiminə düzgün əməl olunmasına nəzarətdə görürük. Sizin yüksək təşkilatçılıq bacarığınız sayəsində biz, inşallah, bu sınaqdan minimum itkilərlə çıxacaq. İşləməyənlərə, imkansız ailələrə edilən maddi yardımlar da rayonumuzun sakinləri tərəfindən rəğbətlə qarşılanır. Xalqımızın sağlamlığına göstərdiyiniz diqqət, qayğı və dəstəyə görə bir daha Sizə dərin minnətdarlığımızı bildiririk”.

Şamaxı rayonunun sakinləri Rasim Ələsgərov, Könül Gülcan, Azər Əhmədov, Şöhrət Şaxməmmədov və Kənan Fərmanov yazırlar: “Hörmətli cənab Prezident, koronavirus pandemiyasının bütün dünyada tüğyan etdiyi, güclü dövlətlərin bu virus qarşısında aciz qaldığı vaxtda Sizin gördüyünüz qabaqlayıcı tədbirlər sayəsində ölkəmiz bu çətinliyi dəf etmək istiqamətində müsbət nəticələr əldə edir. Bu çətin günlərdə Siz yenə də xalqın yanındasınız, bizim sağlamlığımızın və sosial rifahımızın təmin olunması üçün əlinizdən gələni əsirgəmirsiniz. Bizimlə bərabər, ailəmizin, övladlarımızın rifahını düşündüyünüzə, virusun vura biləcəyi zərərin minimuma endirilməsinə görə Şamaxı rayonunun sakinləri adından Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Sizin kimi rəhbəri olan dövlətin vətəndaşı olmağımızdan qürur duyuruq. Hər zaman dövlətimizin rifahı naminə verəcəyiniz qərarlarda Sizin yanınızdayıq”.

İsmayıllı şəhərinin sakinləri Əsgər Manafov, Elşad Qasımov, Yaşar Ağayev və Sahilə Məmmədova yazırlar: “Hörmətli cənab Prezident, bu çətin günlərdə bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Mehriban xanım Əliyevaya şəxsən öz adımızdan və ailələrimizin adından təşəkkürümüzü bildirir, işlərinizdə uğurlar və möhkəm cansağlığı arzulayırıq. Karantin rejimi ilə əlaqədar işə gedə bilməyən insanlara birdəfəlik ödəmənin, Heydər Əliyev Fondu tərəfindən kasıb ailələrə ərzaq yardımlarının verilməsi çox böyük əhəmiyyət daşıyır. Bu, Azərbaycan vətəndaşlarına olan qayğının və sevginin təzahürüdür. Xalqımızın dar günündə hər zaman onun yanında oldunuz, ehtiyaclarının ödənilməsini təmin etdiniz. Ulu Tanrı Sizi heç vaxt darda qoymasın!”.

Mingəçevir şəhərinin sakini Anar Hacıyev: “Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə gündən-günə gözəlləşən, qüdrətlənən, güclənən Azərbaycanımızla qurur duyuram. Bu danılmaz bir reallıqdır ki, Azərbaycanımızın ümummilli lideri Heydər Əliyev ilə başlayan qurtuluşu çiçəklənmə və yüksəlişə doğru irəliləyir. Ölkəmiz Sizin rəhbərliyinizlə bu yüksəlişə davam edir və daha da güclənir, daha da qüdrətlənir, daha da çiçəklənir. Bütün xalqımız Sizin Azərbaycan üçün etdiklərinizi qürurla izləyir, böyük siyasətinizlə fəxr edir. Dünyamızda tüğyan edən bu virusla bağlı gördüyünüz işlər bir daha göstərdi ki, Siz xalqımız üçün necə böyük fədakarlıq göstərir, necə böyük işlər görürsünüz. Pandemiya dövründə Sizin rəhbərliyinizlə görülən işlər bir daha göstərdi ki, Azərbaycanın layiqli, böyük ürəyə malik, xalqını düşünən Lideri var. Mən Sizə böyük minnətdarlığımı bildirir, uzun və xoşbəxt ömür arzulayıram”.

Salyan rayonundan müəllim Röyalə Babazadə: “Möhtərəm cənab Prezident, dünyanı çətin vəziyyətdə saxlayan COVID-19 virusu ilə mübarizədə Siz və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fərqlilik nümayiş etdirdiniz. Dünyanın digər ölkələri ilə müqayisədə yoluxma və tələfat sayının azlığı yeritdiyiniz uzaqgörən siyasətin nəticəsidir. Vətəndaşlarınıza olan sevgi və dəyər bütün bu kompleks tədbirlərdə öz əksini tapmışdır. Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, karantin rejiminin tətbiqi, dövlət və özəl müəssisələrin bu fonda vəsaitlər köçürməsi, aztəminatlı ailələrə və sahibkarlara dəstək, aylıq məvacibləri əvvəlki qaydada ödənilməsi, şagird və müəllimlər üçün tədrisin davam etdirilməsi məqsədilə virtual layihələrin təşkili və bu cür çevik, sistemli şəkildə həyata keçirilən tədbirlər sayəsində Azərbaycan Respublikası bir çox ölkələrə nümunə oldu və olmaqda davam edir. “Biz birlikdə güclüyük!” deyib həmişə xalqımızı ətrafınıza topladınız. Bütün bu iqtisadi, sosial və siyasi tədbirlər üçün Sizə və Mehriban xanım Əliyevaya bir təhsil işçisi olaraq dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm”.

Masallı rayonunun sakini, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin magistrantı Nurlan Əsgərli: “Hörmətli cənab Prezident, bu məktubumla Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu gün dünyanın ən güclü dövlətlərinin belə COVID-19 pandemiyası qarşısında aciz qaldığı bir vaxtda Sizin qətiyyətli addımlarınız sayəsində ölkəmizdə bu infeksiyanın yayılması minimum səviyyəyə endirilmiş, pandemiyanın yayılmasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Əlbəttə ki, pandemiyadan zərərsiz ötüşmək mümkün deyil. Lakin mən inanıram ki, Sizin məqsədyönlü fəaliyyətiniz və apardığınız sosial-iqtisadi tədbirlərdən sonra Azərbaycan bu pandemiyadan ən az zərərlə çıxan ölkələr sırasında olacaqdır.

Möhtərəm cənab Prezident, bu gün xalqımızın sağlamlığını düşünərək qəbul etdiyiniz qərarları dəstəkləyir, Sizə dərin təşəkkürümü bildirir və məqsədyönlü fəaliyyətinizdə Sizə yeni uğurlar arzulayıram. İnanıram ki, sayənizdə bu çətin günləri geridə qoyacağıq. Biz birlikdə güclüyük!”.

# Şəhid abidələrimiz - Natəvan, Hacıbəyli, Bülbül gec-tez Qarabağa qayıdacaq!



## Milli Məclisin (MM) komitə sədrinin müavini, professor Jalə Əliyeva cavablandırır:

***- Jalə xanım, hazırda yaşadığımız may ayı xalqımız üçün həm əlamətdar, həm də təəssüf ki, kədərli günlərlə, hadisələrlə "zəngin"dir. Belə ki, 28 il öncə, cəmi 10 gün içində Azərbaycan üçün son dərəcədə mühüm strateji əhəmiyyətli və bəlkə də Qarabağ münaqişəsinin həllində açar rolunu oynayacaq iki bölgəni-iki dilbər guşəni-dünyanın musiqi konservatoriyası sayılan Şuşanı və laçınlar qayası olan Laçını itirdik. Həm də çox təəssüflər olsun ki, ötən illər ərzində adları çəkilən bölgələrlə yanaşı, Qarabağımızı və ona bitişik digər ərazilərimizi hələ də geriyə qaytara bilməmişik. Torpaqlarımızı geri qaytaracağımıza əminliyimiz bir an olsun belə tükənməyib, əskilməyib, amma itirdiyimiz mənəvi dəyərlərimizi, tarixi-mili-dini sərvətlərimizi geriyə qaytarmaq bəlkə də mümkün olmayacaq. Siz bu haqda nə düşünürsünüz?***

- Bəli, çox təəssüflər olsun ki, 32 ildən bəri zorla cəlb olunduğumuz Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi hələ də davam edir. Hələ də faşizmi, nasizmi, rasizmi, terrorizmi dövlət siyasəti səviyyəsinə qaldıran işğalçı və təcavüzkar Ermənistanın təcavüzkarlıq və işğalçılıq siyasətini davam etdirməsi, hələ də beynəlxalq birliyin, ATƏT-in, onun Minsk qrupunun, həmsədrlər formatının laqeydliyi və biganəliyi, bəzən isə açıq-aşkar işğalçı ilə işğala məruz qalanı eyniləşdirməsi, onların ikili, üçlü standartları üzündən münaqişə ədalətli və müsbət həllini tapmır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 4 qətnamə yerinə yetirilmir, ən təəssüf və təəccüb doğuranı isə həmin qətnamələri qəbul edən təşkilatın Ermənistanın davranışlarına laqeyd və biganə yanaşmasıdır. Nə BMT, nə ATƏT, nə Minsk qrupu, nə də həmsədrlər həmin qətnamələrin icrası, yerinə yetirilməsi üçün Ermənistana heç bir təsir və təzyiq göstərmir, sanksiyalar tətbiq etmir. Bu isə nəticə etibarı ilə Ermənistanı növbəti dəfə işğalçılığa və təcavüzkarlığa şirnikləndirir, stimullaşdırır. Ancaq ölkəmizin, dövlətimizin, xalqımızın, dövlət başçımızın da bu məsələdə mövqeyi qəti, birmənalı və yekdildir. Azərbaycan xalqı və dövləti bu günə qədər işğal faktını qəbul etməyib, onunla barışmayıb, bundan sonra qəbul etməyəcək və barışmayacaq. Ölkə Prezidentinin də bəyan etdiyi kimi, Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycanındır və nida işarəsi. Ancaq Qarabağın, yurd yerlərimizin, o cümlədən, bir neçə gün öncə növbəti işğal ildönümünü qeyd etdiyimiz Şuşanın və bir neçə gün sonra növbəti işğal ildönümünü ürək ağrısı qeyd edəcəyimiz Laçının işğalı, süqutu ilə həm də böyük milli-mədəni-tarixi-dini sərvətlərimizi itirdik. Heç bir dəyər tanımayan Ermənistanın və ermənilərin işğalçılıq, vandalizm siyasəti nəticəsində işğal olunmuş yurd yerlərimizdəki əslərin yadigarı olan tarixi-dini-milli abidələrimiz, məscidlərimiz, ziyarətgahlarımız, qəbristanlıqlarımız, açıq və qapalı muzeylərimiz, sənət incilərimiz hamısı məhv edildi, yerlə-yeksan olundu, yağmalandı. Bunları qaytarmaq, bərpa etmək isə olduqca çətin və deyərdim ki, müşküldür. Düzdür, Azərbaycan dövlətinin, ölkə Prezidentinin, Birinci xanım Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun apardığı gərgin işlər, zəhmətlər sayəsində ölkəmizin, xalqımızın bu məsələlərdə də haqq səsi dünyaya duyuruldu, çatdırıldı, bunlar da müvafiq qərarlarda, sənədlərdə əksini tapdı, amma bizi yenə də böyük mübarizə, böyük səfərbərlik gözləyir. Canlı itkilərimizi, şəhidlərimizi geri qaytara bilməsək də, qaytara biləcəklərimizi, dünyaya əyani şəkildə çatdıra biləcəklərimizi reallaşdırmaq üçün hamılıqla, elliklə hələ də görüləcək çoxlu işlərimiz çoxdur. Hamımız bu məsələlər üzərində fokuslaşmalıyıq...

***- Konkret olaraq, nəyi və nələri nəzərdə tutursunuz?***

- Bu haqda fikirlərimi bir neçə dəfə açıqlamışam, bildirmişəm. Həm mətbuatdakı və televiziya proqramlarındakı çıxışlarımda, həm də Milli Məclisin komitə və plenar iclaslarında bu yöndə öz fikir və təkliflərimi səsləndirmişəm. Elə cəmi bir neçə gün öncə, konkret qeyd etməli olsam, Milli Məclisin mayın 5-də keçirilən iclasında "Nəşrlərin beynəlxalq mübadiləsi konvensiyasının təsdiq edilməsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı bu haqda bir daha danışmışam, cəmiyyətə və əlaqədar qurumlara çağırış etmişəm. Həmin çıxışımı olduğu kimi, buradan bir daha təkrar olaraq qeyd etmək istəyirəm ki, hamımıza məlum olduğu kimi, Qarabağımızın, bütövlükdə Azərbaycanımızın mənəvi sərvətlərindən, dühalarından olan Xan qızı Natavanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün uzun illər boyu işğal altındakı torpaqlarımızda vandalizmə məruz qalan heykəlləri Ümummilli lider Heydər Əliyevin səyləri və müdaxiləsi ilə Bakıya gətirildi. Həmin heykəllər o zamandan bəri İncəsənət Muzeyinin arxa həyətində saxlanmaqdadır. Bizcə bu şəhid heykəllər, şəhərin görməli yerlərindən birində, məsələn Şəhidlər Xiyabanında nümayiş etdirilməlidir. Ümumiyyətlə 20-ci əsrdə bir neçə dəfə soyqırımına, repressiyalara məruz qalan bir xalqın tarixi həqiqələrini və haqqımızın geri qaytarılması uğrunda həyata keçirilən dövlət siyasətini əks etdirən eksponatlardan ibarət bir muzeyin açılmasına ehtiyac var. Bu heykəllər bizim haqlı mübarizəmizin pasportudur, Ermənistanın torpaqlarımızda həyata keçirdiyi dağıdıcı siyasətin daşlaşmış yaddaşıdır. Və bu heykəllərin göz önündə olmasına çox əhəmiyyətlidir. Çünki Azərbaycan bü gün bütün sahələrdə inkişaf etdiyi kimi, turizm sahəsində də böyük inkişaf mərhələsinə qədər qoymuşdur. Ölkəmiz turistlər üçün cəlbedici və cəzbedici ölkəyə çevrilmişdir. Hər il on minlərlə, yüz minlərlə turist ölkəmizə, Bakımıza axın edir. Onların çoxunun heç də Qarabağ münaqişəsindən, erməni barbarlığı və vandalizmindən geniş, müfəssəl məlumatları, xəbərləri yoxdur. Belə bir muzeyi yaratmaqla və oraya turistlərin axınını təşkil etməklə, Qarabağ həqiqətələrini, Qarabağ acılarını, başımıza gətirilən müsibətləri əyani şəkildə göstərmiş və təqdim etmiş olarıq. İnanıram və əminəm ki, bunun ermənilərin, Ermənistanın iç üzünün açılmasında, erməni yalanlarının ifşa olunmasında böyük rolu olmaqla bərabər, nəticə etibarı ilə Qarabağ münaqişəsinin həllinə müəyyən mənada təsiri ola bilər. Ona görə inanmaq istərdim ki, çox yaxın gələcəkdə bu yöndə təklifimə, yeri gəlmişkən demək istəyirəm ki, Parlamentin 5 may tarixli iclasında irəli sürdüyüm bu təklifin nəzərə alınması xahişi ilə artıq əlaqədar qurumlara müraciət etmişəm, inanıram ki, müsbət cavab veriləcəkdir.

***- Qeyd etmək yerinə düşər ki, Sizin təklifiniz necə deyərlər, özünə geniş tərəfdar toplamaqdadır, cəmiyyətdə bununla bağlı gəlişmələr yaşanmaqdadır...***

- Bəli, mənim üçün çox xoşdur ki, son bir neçə ildə, eləcə də, 5 may tarixli çıxışımda səsləndiriyim təkliflər insanlar tərəfindən müsbət yöndən və rəğbətlə qarşılanmaqda, dəstək qazanmaqdadır. Hətta elə həmin çıxışımdan sonra növbəti iclasımızda həmkarım Qənirə Paşayeva da eyni təkliflə çıxış etdi. Mən ona, təklifimi dəstəklədiyi üçün təşəkkür edirəm. Ümumiyyətlə, bu məsələ zaman zaman çeşidli fikirlər, təkliflər şəklində ortaya qoyulur. Düşünürəm ki, həm adını çəkdiyimiz heykəllərin, həm də işğal altındakı torpaqlarda qalan maddi və mənəvi abidələrin geniş çapda tanıtımı dünya ictimai fikrinin formalaşması, nəticə etibarilə haqqımızın, ədalətin bərqərar olması baxımından çox vacibdir. Əminik ki, bu heykəllər gec-tez Qarabağa qayıdacaq!

# Baş Prokurorluq terrorçuluğu maliyyələşdirən şəxsi cinayət məsuliyyətinə cəlb edib



Azərbaycan Respublikasının Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkənin ictimai təhlükəsizliyinə qarşı yönələn təhdid və pozuculuq hərəkətlərinin qarşısının alınması və təqsirli şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri tədbirlər davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə Məmmədov Qabil Əmrah oğlunun Azərbaycan Respublikası ərazisində 2015-2017-ci illərdə törətdiyi aldatma və etibardan sui-istifadə etmə yolu ilə külli miqdarda özgə əmlakını ələ keçirmə cinayət əməllərinə görə məsuliyyətdən yayınmaq məqsədilə Almaniya ərazisində sığınacaq alaraq Azərbaycan Respublikası ərazisində terrorçuluğa hazırlıq və terrorçuluğa açıq çağırışlar etməsinə əsaslı şübhələr müəyyən olunub.

Faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində başlanmış cinayət işinin istintaqı zamanı Q.Məmmədovun əvvəllər konkret cinayət əməllərinə görə məhkum edilmiş həmfikirləri və havadarları ilə qabaqcadan əlbir olduğu qrupda gizli təşkilatlanıb Azərbaycan Respublikasında ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terror aktları törətmək üçün 2019-cu ildə sosial şəbəkələr vasitəsilə yayımladığı çoxsaylı videoçıxışlarında özünə tərəfdar bildiyi və dəstək verəcəklərini güman etdiyi həmfikirlərinə müraciət edərək silahlanıb mümkün kütləvi aksiyaların gedişində Azərbaycan Respublikasının hakimiyyət orqanlarının yüksəkvəzifəli şəxslərini, o cümlədən ictimai asayişi qoruyan polis əməkdaşlarını qətlə yetirmək, onların evlərini yandırmaqla terrorçuluğun törədilməsinə yönələn açıq çağırışlar etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Aparılmış istintaqla həmin materialları internet resurslarında yaymaqla nəzərdə tutulmuş cinayətlərin hazırlanması və törədilməsində istifadə edilməsi məqsədilə dövlətə və hakimiyyətə qarşı cinayət əməllərində dəstəklənməsinə etibar etdiyi şəxslərə, o cümlədən yaxından tanıdığı həmyerlisi Əhmədov Niyaməddin Arif oğluna müxtəlif üsullarla göndərdiyi pul vəsaitlərini verməsinə, sonuncunun isə öz növbəsində terrorçuluğun maliyyələşdirilməsində istifadə olunacağını bilib həmin pul vəsaitlərini qəbul edərək uydurma ünvanlar adı altında qəsdən toplamaqla terrorçuluğun maliyyələşdirilməsi cinayətini törətməsinə əsaslı şübhələr müəyyən edilib. Lakin Qabil Məmmədovun çıxışlarında bəyan etdiyi terrorçuluğun törədilməsinə yönələn cinayət əməlləri iradəsindən asılı olmayan səbəblərdən başa çatdırılmayıb.

Göstərilənlərlə əlaqədar hazırda barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilməklə axtarışda olan Qabil Məmmədova Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan olunmaqla onun Azərbaycan Respublikasına ekstradisiyası üzrə müvafiq hüquqi prosedurlar həyata keçirilir. Niyaməddin Əhmədov isə Cinayət Məcəlləsinin 214-1-ci (Terrorçuluğu maliyyələşdirmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın pozulmasına yönələn bütün hüquqazidd əməllərin və onları törətmiş şəxslərin vaxtında aşkarlanaraq məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri tədbirlər bundan sonra da qətiyyətlə davam etdiriləcək.

# Musa Quliyev: "Artıq daha çox ailə ünvanlı sosial yardımdan faydalana biləcək"



"Bu ilin əvvəlində dövlət başçısı ünvanlı sosial yardıma daha çox insanların cəlb edilməsi üçün hökumətə tapşırıqlar verib". SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında "Ünvanlı dövlət sosial yardımı haqqında" qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı deputat Musa Quliyev deyib.

O bildirib ki, dəyişikliklərin hamısı mütərəqqi xarakter daşıyır: "Bu, vətəndaşların ünvanlı sosial yardım alması üçün şərtlərin stimullaşdırılmasına xidmət edir. Ünvanlı sosial yardımın yalnız qeydiyyat yeri üzrə təyin olması hissəsi bu layihə ilə ləğv edilir. Layihə qəbul edildikdən sonra faktiki yaşadığı ünvan nəzərə alınmaqla, ünvanlı sosial yardım almaq üçün müraciət oluna biləcək. Həmçinin yeni layihə ünvanlı sosial yardımla bağlı neqativ təşəbbüslərin aradan qalxmasına xidmət edəcək. Artıq daha çox ailə ünvanlı sosial yardımdan faydalana biləcək. Yeni layihədə müsbət məqamlardan biri də ünvanlı sosial yardım üçün müraciət edən vətəndaşlardan tələb olunan sənədlərin sayının minimuma endirilməsidir. Artıq müraciət edən şəxs sadəcə ailə tərkibi haqqında məlumat verməli olacaq və digər sənədlər elektron qaydada bazadan götürüləcək. Bu layihə qəbul edildəndən sonra Nazirlər Kabinetinin ünvanlı dövlət sosial yardımının təyin olunması ilə bağlı qaydalarında da dəyişiklik edilməsi nəzərdə tutulur. Buna əsasən artıq götürülən kreditlər ailənin gəliri kimi nəzərə alınmayacaq", - deyə deputat qeyd edib.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova mayın 15-də parlament Aparatının rəhbəri və digər məsul şəxslərlə birlikdə Bakı, Sumqayıt və Abşeronun seçki dairələrindən seçilmiş deputatların köməkçiləri ilə keçirdiyi görüşdən danışıb. Bildirib ki, karantin rejiminə görə bölgələrdən deputat köməkçilərinin Bakıya dəvət edilməsi məqsədəuyğun sayılmayıb. Onlarla videokonfrans formatında görüşün keçirilməsi nəzərdə tutulur.***

Sədr diqqətə çatdırıb ki, görüşdə yeni təyin edilmiş köməkçilərin fəaliyyət istiqamətləri və vəzifələri barədə geniş fikir mübadiləsi aparılıb. "Bildiyiniz kimi, Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasında söylədiyi proqram xarakterli nitqində parlamentin fəaliyyətinin yol xəritəsini müəyyən edib. Dövlət başçısı öz tövsiyələri ilə biz deputatların qarşısında yeni vəzifələr qoyub. Ən mühüm vəzifələrdən biri odur ki, deputatlar seçildikləri dairələrdə fəal iş aparmalı, seçicilərlə daim təmasda olmalıdırlar. İnsanları narahat edən məsələlərin aşkara çıxarılması və dövlət orqanları qarşısında qaldırılması deputatlıq fəaliyyətinin ən vacib istiqamətlərindən birini təşkil etməlidir. Deputatların vəzifə və səlahiyyətlərinin dolğun şəkildə həyata keçirilməsində onların köməkçilərinin üzərinə böyük məsuliyyət düşür. Yəqin mənimlə razılaşarsınız ki, biz köməkçilərimizdən yüksək bilik və bacarıqla yanaşı, təşəbbüskarlıq və fəallıq da gözləyirik", - deyə Sahibə Qafarova qeyd edib. Bildirilib ki, deputat köməkçiləri ilə bu cür görüşlər ümumi işin xeyrinədir və onları davam etdirmək lazımdır.

İclasda çıxış edən Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Siyavuş Novruzov, Musa Quliyev, Zahid Oruc, Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Elman Nəsirov, Azay Quliyev, Tural Gəncəliyev və Naqif Həmzəyev cari məsələlər barədə fikirlərini ifadə edib, qeyd və təkliflərini bildiriblər.

Gündəlik təsdiqləndikdən sonra birinci məsələnin müzakirəsinə başlanılıb.

Sahibə Qafarova bildirib ki, qanunvericiliyə uyğun olaraq, bugünkü iclasda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinləniləcək. İllik məlumatı parlamentə Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini Seyfulla Əzimov təqdim edəcək.



İclasda çıxış edən Seyfulla Əzimov ölkəmizdə insan alveri cinayətlərinə qarşı mübarizənin səmərəli aparılması üçün görülmüş tədbirlərdən danışıb. Qeyd edib ki, insan alverinə qarşı mübarizə üçün lazımi qanunvericilik bazası yaradılıb, hökumət tərəfindən bir sıra mühüm qərarlar qəbul edilib. Bu cinayətlərdən zərər çəkmiş şəxslərə ödənilən müavinətin məbləği 400 manatdan 700 manatadək artırılıb. Ötən il ərzində insan alverinə qarşı mübarizə sahəsində geniş maarifləndirmə işi aparılıb. Maarifləndirmə işlərində vətəndaş cəmiyyəti institutları və kütləvi informasiya vasitələri yaxından iştirak ediblər. Respublikanın 55 şəhər və rayonunda, orta ixtisas və ali təhsil müəssisələrində insan alverinə və məcburi əməyə qarşı mübarizəyə dair seminarlar keçirilib. Bununla bağlı Bakı şəhərində geniş ictimaiyyət üçün nəzərdə tutulmuş təşviqat xarakterli videolar, təbliğat materialları paylanılıb, televiziya və radioda, videoportallarda verilişlər yayımlanıb. İnsan alveri ilə mübarizə sahəsində ötən müddət ərzində xarici tərəfdaşlar və təşkilatlarla qarşılıqlı əlaqələrin gücləndirilməsi də diqqət mərkəzində saxlanılıb.

Nəzərə çatdırılıb ki, 2019-cu ildə insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsi sahəsində məqsədyönlü iş aparılıb. Həyata keçirilən tədbirlər nəticəsində insan alveri ilə bağlı 186, o cümlədən məcburi əməklə bağlı 4, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 36 cinayət qeydə alınıb, 10 nəfərdən ibarət 4 cinayətkar qrup zərərsizləşdirilib. Müəyyən edilmiş 91 insan alveri qurbanından 89-u Azərbaycan vətəndaşı, 2-si əcnəbi olub. Zərərçəkənlərə tibbi, psixoloji və hüquqi yardımlar göstərilib.

Məsələyə münasibət bildirən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc diqqətə çatdırıb ki, Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin birgə iclasında bu mövzu ətraflı müzakirə olunub. Qeyd edib ki, Azərbaycanda insan alverinə qarşı hüquqi bazanın yaradılması çərçivəsində sistemli mübarizə tədbirləri 2003-cü ildə BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasının, onu tamamlayan İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında, həmçinin Sərhədlərin qanunsuz keçilməsinə dair protokolların təsdiqindən sonra daha da sürətlənib. Belə ki, 2005-ci ildə insan alverinə qarşı mübarizə ilə bağlı qanun qəbul olunub və burada Milli Fəaliyyət Planı yer alıb, Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə üzrə Baş İdarəsi yaradılıb, Azərbaycanda İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator vəzifəsi təsis olunub.

Müzakirələr zamanı çıxış edən Milli Məclis Sədrinin müavini Adil Əliyev, komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlardan Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Tahir Rzayev, Cavid Osmanov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Məşhur Məmmədov, İsa Həbibbəyli, Fəzail Ağamalı və Səttar Möhbalıyev məsələ barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini veriblər. Müzakirələrin sonunda Daxili İşlər nazirinin birinci müavini Seyfulla Əzimov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib.

Sonra İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı səsə qoyularaq nəzərə alınıb.

Fasilədən sonra gündəlikdəki məsələlərin müzakirəsi davam etdirilib. Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin ikinci məsələsindən yeddinci məsələsinədək olan qanun layihələri üçüncü oxunuşdadır.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (üçüncü oxunuş) məlumat verib. Bildirib ki, dəyişikliyin mahiyyəti məhkəmə qərarı ilə hüquqi şəxslərin ləğvi və yenidən yaradılması ilə bağlı məlumatların dövlət reyestrində yerləşdirilməsindən ibarətdir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Turizm haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri haqqında məlumat verən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, hər iki qanuna təklif olunan dəyişiklik birdəfəlik və çoxdəfəlik elektron vizaların verilmə müddətinin qısaldılmasını özündə ehtiva edir. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Sonra Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Ətraf mühitə dair informasiya almaq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məsələni müzakirəyə təqdim edib. Bildirib ki, bu dəyişiklik "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanuna uyğunlaşdırma məqsədilə hazırlanıb. Layihə üçüncü oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məsələni təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə bildirib ki, dəyişiklik 2018-ci il dekabrın 28-də qəbul edilmiş "İcra haqqında" qanuna uyğunlaşdırma məqsədi daşıyır. Qanun layihəsi səsə qoyularaq təsdiq edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məlumat verib. Bildirib ki, bu dəyişiklik Prezident İlham Əliyevin 2019-cu il 29 dekabr tarixli Fərmanına uyğun olaraq hazırlanıb. Həmin Fərmana əsasən Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılmış və onun nizamnaməsi təsdiq edilib. "Təhsil haqqında" Qanuna təklif olunan dəyişikliklər də bununla bağlıdır. "Dövlət rüsumu haqqında" Qanuna təklif olunan dəyişikliklər isə "Təhsil haqqında" Qanuna təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Layihə səsə qoyularaq təsdiqlənib.

"Əmanətlərin sığortalanması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qeyd edib ki, qanun layihəsi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci il 4 may tarixli qanuna əsasən hazırlanıb və terminlərin dəqiqləşdirilməsi məqsədi daşıyır. Bu qanunla yeni bir termin - "maliyyə hesabatları" termini təsbit edilib və onun anlayışı verilib. Layihə səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, 9-cu məsələdən 18-ci məsələyədək olan 10 qanun layihəsi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanuna uyğunlaşdırma xarakteri daşıyır. Onuncu məsələ isə Konstitusiya Qanunu olduğuna görə qəbul edildikdən 6 ay sonra ikinci dəfə səsverməyə çıxarılacaqdır. Sonda Milli Məclisin Sədri Sahibə Qafarova qarşıdan gələn Ramazan bayramı və 28 May - Respublika Günü münasibətilə təbriklərini çatdırıb.

# Pakistan nəşri Qarabağ münaqişəsinin tarixindən yazır

***Pakistanın "Islamabad Post" qəzetində "Qarabağ münaqişəsinin tarixi: bu, necə olub" sərlövhəli geniş məqalə dərc edilib. Məqalənin müəllifi İslamabad Universitetinin professoru Mahmud Ul-Hassan Xandır.***

AZƏRTAC xəbər verir ki, Dağlıq Qarabağda və ona bitişik rayonlarda erməni silahlı dəstələri tərəfindən etnik təmizləmə aparılmasını və kütləvi qətllər törədilməsini ətraflı təsvir edən müəllif beynəlxalq hüququn bütün normalarını və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini pozan işğalçı siyasət yürüdən Ermənistanı "faşist dövləti" adlandırır.

Müəllif vurğulayır ki, bundan əvvəl dərc edilmiş silsilə məqalələrin davamı olan tədqiqatın məqsədi tarixin saxtalaşdırılması ilə mütəmadi məşğul olan, mədəni-tarixi irsi məhv etmək yolu ilə bu ərazilərin Azərbaycana məxsusluğunu insanların yaddaşından silməyə cəhd edən işğalçının iç üzünü açıb göstərməkdir.

Müəllif mübahisəsiz faktlara diqqət çəkərək yazır ki, Ermənistan ictimai şüurda




manipulyasiyalar etmək üçün nə qədər cəhd göstərsə də, başqa ölkənin, - vaxtilə məhz onun torpaqları sayəsində Ermənistanın yaradıldığı dövlətin, - ərazilərinin 20 faizini təxminən 30 il işğal altında saxlamaq faktını ört-basdır etmək mümkün deyil. Pakistanlı alim, Londonda yerləşən bir qeyri-hökumət təşkilatı tərəfindən bu münaqişənin tarixi ilə bağlı çəkilmiş filmi də ətraflı təhlil edir. Müəllif bildirir ki, film faktiki olaraq tamaşaçıda belə bir fikir formalaşdırır: Ermənistanın indiki rəhbərlərini də Nürnberq prosesinə oxşar bir aqibət gözləyir.

# Nasist kollaborasionistlərinin yeri Tarixin zibilliyindədir

*Bütün sivil bəşəriyyət nasizmə və onunla bağlı ən ağır cinayətlərə münasibət məsələsində birmənalı və güzəştsiz mövqe tutub: “XX əsrin taunu” sayılan nasizmə heç bir bəraət yoxdur və ola da bilməz!*

***Lakin bugünkü Ermənistanda baş verən hadisələrin təşviş doğurması nəzərə alınsa, belə çıxır ki, 75 il əvvəl məhv edilmiş “taun” öz əks-sədasını bu əsrdə tapır və elə bir ölkədə təzahür edir ki, onun sakinləri “müstəsna”, “istedadlı” və bir növ “Tanrı tərəfindən seçilmiş olmaları” ilə hamıdan çox lovğalanırlar. Heç bir digər ölkədə siyasi rəhbərlik və cəmiyyət milyonlarla azadlıqsevər insanın qanı bahasına devrilmiş şərəfsiz, vecsiz nasizmi bu dərəcədə həyasızcasına və utanmazcasına dirçəltmək, ona bəraət qazandırmaq və sonra da tərifini göylərə qaldırmaq üçün bu qədər səy göstərmir!***

Bəlkə də bütün məsələ məhz elə bundadır ki, erməni məddahların bəşəriyyətin sivil təbəqəsinə heç bir aidiyyəti yoxdur və onlar sivil dünyanı mağara vəhşiliyindən ayıran xəttin o biri tayındadırlar.

Uzun illər əvvəl Ermənistan mətbuatında Azərbaycanda ayrı-ayrı qanun pozucularının “qəhrəman kimi qələmə verilməsi” barədə ilk savadsız və əsassız opuslar meydana çıxanda AZƏRTAC bu meydanoxuyucu çağırışı cavabsız qoymadı və bir məqaləsi ilə o vaxt durmadan vəngildəyən Levon Məlik-Şahnazaryan başda olmaqla, erməni təbliğat maşınının bütün şərəfsiz tayfasını uzun müddətə boks rinqinin küncünə sıxışdırdı. Gəlin indi həmin nokauta qayıtmayaq, nəzərə alaq ki, məğlub edilmiş opponent artıq çoxdan torpaq qurdlarının yeminə çevrilib. Yalnız bəzi adları xatırlayaq. Onda adları küçə, meydan və metro stansiyalarına verilmiş nasist generalları Drastamat Kanayanın (Dro) və Qaregin Ter-Arutyunyanın (Njde), Kaliforniyada iki türk diplomatını nahara dəvət etmiş, qonaqlar yemək yedikləri anda masadan qalxaraq arxadan onlara “qəhrəmancasına” (lap ermənisayağı şəkildə!) atəş açmış Qurgen Yanikyanın, habelə başqa bir “kişinin” - Berlində Birinci Dünya müharibəsi dövrünün böyük şəxsiyyətinin, Şərqi Anadolunun müsəlman əhalisini qırğından xilas etmiş Tələt paşanın yanından keçərkən dönüb ona arxadan atəş açmış..., - bəli, bəli, yenə də arxadan, - Soqomon Taleyranın adları erməni “bəraətvericilərinin” və “qəhrəman yaradanlarının” sifətinə şapalaq kimi çırpılmışdı!

Ümumiyyətlə, arxadan vurmaq elə bir milli xüsusiyyətdir ki, Yerevan bunu mütləq erməni xalqının “məziyyəti” kimi Bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına daxil etdirməlidir. Əminəm ki, bu məsələdə ermənilərin tayı-bərabəri yoxdur. Bax, AZƏRTAC-ın erməni təbliğat maşını üçün ağrılı olan həmin məqaləsi yuxarıda adları sadalananlarla bərabər, Monte Melkonyan, Varujan Qarabedyan, Ampiq Sasunyan, Akop Akopyan kimi ASALA terrorçularının və digər törtöküntülərin də Ermənistanda qəhrəman kimi qələmə verildiyini xatırlatmaqla, erməni müəllifləri uzun müddətə susdurmuşdu. Elə susdurmuşdu ki, onların daha deməyə sözləri qalmamışdı.

Bizə elə gəlirdi ki, bəlkə də ermənilər həqiqətən utanıblar. Sən demə, bu, onlardan tamamilə uzaq bir hissdir! Yerevan nəinki həmin obyektlərə verilən şərəfsiz adları dəyişdirmək, bu rüsvayçılıqdan qurtularaq adını təmizə çıxarmaq barədə düşünmədi, üstəlik, vermaxtın tərkibində Erməni legionunun rəhbəri, qatı yaramaz Qaregin Njdeyə illər sonra paytaxtın mərkəzində abidə ucaltmaqla bütün sivil dünyanın ağlını çaşdırdı. Bu, eynən Qızıl meydanda general Vlasova, Brandenburq qapısı qarşısında Yozef Gebbelsə, Parisin mərkəzində Anri Petenə, Brüsseldə Leon Deqrelə, Afinada İoannis Rallisə, Budapeştdə Ferens Salaşyanuya və bu kimi digər şəxslərə abidə ucaltmağa bənzəyir. Bu, son dərəcə rəzil addımın ovaxtkı təşəbbüskarları dünyanın şokdan ayılmasına imkan vermədən tələm-tələsik özlərinə bəraət də düşünüb tapdılar: guya Njde Birinci Dünya müharibəsi illərində erməni millətini “soyqırımı”ndan xilas edib. Bu isə o deməkdir ki, Njde “qəhrəmandır”. Biz Njdenin keçmiş “xidmətlərinə” hələ qayıdacağıq, ermənilərin “yaxşı işləri” də olduğu halda, “pis işlərə” diqqət yetirmək nəyə lazımmış” kimi dəlilləri isə ikrah hissi oyadır. Təkrar edim ki, “yaxşı işlər” barədə hələ danışacağıq, lakin sonralar əbədiləşdirilməsi məqsədi ilə “yaxşı işlər” axtararkən, heç olmazsa, bunu xatırlatmağa dəyər ki, Yozef Gebbels klassik musiqini, Hitler isə itləri və pişikləri sevirdi. Axı bunlar çox gözəl xüsusiyyətlərdir, elə deyilmi? Onda gəlin, bu gözəlliklərin və planetimizdə həyatın “qədir-qiymətini bilənlərə” də abidələr ucaldaq.

Əgər Yerevanda bu ölkənin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyü və “sevimli aşna” statusu onları belə münasibətsiz hərəkətlərdən qoruyacağına ümid edirdilərsə, onda açıq-aşkar görünür ki, orada heç də bütün riskləri qiymətləndirməyiblər. Elə bir neçə il sonra, 2019-cu ilin mayında RF XİN “İrqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və bunlarla bağlı dözümsüzlüyün eskalasiyasına şərait yaradan nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin və praktikanın digər növlərinin yayılması ilə bağlı vəziyyət haqqında” məruzə təqdim edib. Məruzə RF XİN-in rəsmi saytında yerləşdirilib. (bax:https://www.mid.ru/foreign-_policy/humanitarian_cooperation/-/asset_publisher/bB3NYd16m BFC/content-/id/3193903%234). Sənəddə deyilir ki, “...Ermənistanın sabiq hakim Respublika Partiyası barəsində Üçüncü Reyxlə əməkdaşlıq etməsi haqqında informasiya olan Q.Njde kimi millətçi cərəyana məxsus heç də birmənalı olmayan siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi yönümündə addımlar atıb”

Amma Yerevanda onun heykəlinin açılışından əvvəl Moskvada




həyəcan təbili çalmağa başlayırlar. 2013-cü ildə Moskvada RF Müdafiə Nazirliyinin Baş Redaksiya Komissiyasının sədri Sergey Şoyqunun redaktəsi ilə 12 cildlik “1941-1945-ci illərin Böyük Vətən müharibəsi” ensiklopediyasının 6-cı cildi çapdan çıxır. “Gizli müharibə: Böyük Vətən müharibəsi illərində kəşfiyyat və əks-kəşfiyyat” adlanan cilddə “Müharibənin həlledici dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti” sərlövhəli məqalə yerləşdirilib. Həmin məqalədən bir sitat gətiririk: “Əks-kəşfiyyatçılar Abverin 114-cü qrupu (“Dromedar”) ilə bağlı agentura işi çərçivəsində mühacirətdə olan daşnak ordusunun sabiq generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş Ter-Arutyunyanı üzə çıxarıb və onu həbs ediblər. O, Böyük Vətən müharibəsi illərində Bolqarıstan ərazisində erməni millətindən olan 30-dan çox agent cəlb edib, onların diversant kimi hazırlanmasında və təxribat fəaliyyəti üçün Qızıl Ordunun arxa cəbhəsinə göndərilməsində iştirak edib. SMERŞ əməkdaşları 17 diversantı ələ keçiriblər, onların diversiya-təxribat aktları törətmələrinə yol verməyiblər, qalanları barəsində isə axtarış elan ediblər”.

Daha sonra “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko Qaregin Njde tərəfindən cəlb olunmuş agentlərin sayı barədə informasiyanı şərh edərkən bu sözləri deyəcək:”Njdenin nasist Almaniyasının xüsusi xidmət orqanları üçün konkret olaraq nə qədər diversant və terrorçu cəlb etməsi barədə məsələnin nəzərdən keçirdiyimiz mövzu kontekstində prinsipial əhəmiyyəti yoxdur. Vacib olan başqa məsələdir - müasir Rusiyada yaxşı bilirlər ki, Njde nasistlərin sadəcə kəşfiyyat-agentura fəaliyyəti üçün deyil, məhz döyüşən Sovet ordusunun arxa cəbhəsində və SSRİ ərazisində diversiya-terror aktları törədilməsi üçün güclü agentura şəbəkəsi yaratmış gizli agenti olub. Bu səbəbdən də Njde nasist kollaborasionisti və cinayətkardır”.

Prezident İlham Əliyev 2019-cu ilin oktyabrında MDB ölkələrinin Aşqabad sammitində həmkarlarının diqqətini Ermənistanda cərəyan edən təşvişdoğurucu proseslərə cəlb edib. Daha sonra söz alan Ermənistanın baş naziri, vətən xaininin nəvəsi Nikol Paşinyan Azərbaycan dövlətinin başçısının qaldırdığı sualı “subyektiv interpretasiya” adlandıraraq, xain babasının komandirini müdafiə edib.

Xain babanın dilli-dilavər nəvəsi bu məsələnin Əliyevə qədər əvvəlcə hələ RF-nin Müdafiə Nazirliyi, daha sonra RF XİN tərəfindən (yuxarıda barəsində danışılan sənədlərə bax) qaldırıldığını deməkdən qorxub və həmin strukturları “subyektiv interpretasiya”da qınamağa cəsarət etməyib.

“Elə təəssürat yaranır ki, Hitler bu müharibədə yalnız ikinci dərəcəli rol oynayıb və nasist hərəkatının lideri Qaregin Njde olub”, - deyə Nikol Paşinyan düşünmədən cavab verib.

Bilirsiniz, yalnız çox həyasız adam nasistləri tərəzidə çəkib, kimin digərindən daha qatı faşist olduğunu ölçə bilər. Faşist elə faşistdir, “faşistliyin” dərəcəsini ölçən cihaz yoxdur. Paşinyanın məntiqinə görə, Rusiya ermənilərdən nümunə götürüb general Vlasova abidə qoymalıdır, çünki Paşinyanın təbirincə desək, Hitlerlə müqayisədə o, müharibədə “birinci dərəcəli” rol oynamayıb.

Ermənistan baş nazirinin Aşqabadda söylədiyi daha bir fikir də onun düşünmədən danışdığını göstərir: “Həqiqət bundan ibarətdir ki, Njde Ermənistanın Türkiyə tərəfindən işğalına və ermənilərin soyqırımına qarşı mübarizə aparıb”.

Əvvələn, o, İkinci Dünya müharibəsində “ermənilərin soyqırımı” dedikdə nəyi nəzərdə tutub? Daha sonra, müharibədə soyqırımının və Holokostun tərəfində iştirak etməklə, soyqırımına qarşı necə mübarizə aparmaq olar? Üçüncüsü, İkinci Dünya müharibəsi illərində “Ermənistanın Türkiyə tərəfindən işğalı”na qarşı mübarizə lap Petrosyansayağı yumora bənzəyir. Madam ki, Njde “Ermənistanın türklər tərəfindən xəyali işğalı”na qarşı mübarizə aparırdı, onda məntiqlə Ermənistanı müdafiə etmək və onun işğalına yol verməmək üçün öz əsgərləri ilə birlikdə dərhal Fəhlə-Kəndli Qızıl Ordusu sıralarına daxil olmalı idi.

Əslində, Njde həqiqətən də Ermənistanın “işğalına” qarşı mübarizə aparıb, amma türklər tərəfindən deyil, Sovet İttifaqı tərəfindən “işğalına”. Paşinyan bunu çox gözəl bilir, sadəcə özünü gicliyə qoyub. Türkiyə Ermənistanı işğal edə bilməzdi, çünki o, 1921-ci ildə imzaladığı Moskva müqaviləsinə sadiq idi. Njde Ermənistanın Türkiyə tərəfindən deyil, məhz Sovet İttifaqı tərəfindən işğal edildiyini düşünürdü. Njde Türkiyədən çox SSRİ-yə nifrət edirdi və o, Ermənistan SSR-i sovetsizləşdirmək məqsədi ilə Hitlerin tərəfinə keçmişdi.

Bu faktdır və Njde bunu heç vaxt gizlətməyib. Paşinyan çox gözəl bilirdi ki, nifrət “oxunu” SSRİ-dən Türkiyəyə çevirməklə, həyasızcasına yalan danışır. Lakin Nikol Paşinyanın qorxaq təbiəti onun bütün bunları Aşqabadda MDB-nin iştirakçısı olan dövlətlərin başçılarının yanında deməsinə imkan vermədi, çünki yaxşı bilirdi ki, ona dərhal bunları xatırladacaqlar: məhz sovetləşdirmə Ermənistanın adını tarixdən silinməsinə yol vermədi, onun üçün rüsvayçı olan Aleksandropol (Gümrü) müqaviləsini ləğv etdi, üstəlik, qonşularının on minlərlə kvadratkilometr ərazisini ona bəxş etdi. Baş nazir bu səbəbdən Qaregin Njdenin həzm edə bilmədiyi faktı - Ermənistanın SSRİ-nin tərkibinə daxil olması faktını “Türkiyə tərəfindən işğal” tezisi ilə əvəzlədi.

Nikol Paşinyanın Aşqabaddakı replikası onun bioqrafiyasının ən rüsvayçı səhifələrindən biri idi, lakin rüsvayçılığının son həddi deyildi və o, bu həddə dörd ay sonra Berlində çatdı. Ermənistanın baş naziri bu ilin fevralında Almaniya paytaxtında Fridrix Ebert Fondunda çıxış edərək deyəcək ki, onun ölkəsində “... Njdeni ermənilərin soyqırımını dayandırdığına və 1918-ci ildə erməni dövlətçiliyinin itirilməsinin qarşısını aldığına görə [qiymətləndirirlər]”.

Ardı Səh. 11

# Nasist kollaborasionistlərinin yeri Tarixin zibilliyindədir

*Bütün sivil bəşəriyyət nasizmə və onunla bağlı ən ağır cinayətlərə münasibət məsələsində birmənalı və güzəştsiz mövqe tutub: “XX əsrin taunu” sayılan nasizmə heç bir bəraət yoxdur və ola da bilməz!*

Əvvəli Səh. 10

Yaxşı, əgər Njde “soyqırımı”nı dayandırıbsa, deməli, etiraf edirlər ki, hər il dünya erməniləri “boş bir hadisənin ildönümünü” qeyd edirlər - axı baş verməmiş və ya dayandırılmış bir hadisənin ildönümü necə qeyd edilə bilər? İkincisi, madam ki, Njde belə qəhrəmandır, onda bəs nə üçün o, iki il yarım sonra, 1920-ci il dekabrın 2-də Ermənistan dövlətçiliyinin itirilməsinin qarşısını ala bilmədi? Əslində, Njde Türkiyəni ilahiləşdirməli idi, çünki o, Ermənistanı darmadağın etdikdən və onunla Aleksandropol müqaviləsini imzaladıqdan sonra, heç olmazsa, gələcəkdə müstəqil dövlət kimi mövcud olmasına müəyyən şans verdi, halbuki Qızıl Ordu erməniləri dövlətçiliklərindən tamamilə məhrum etdi. Nə etməli, Paşinyanın məsələnin faktlarla bağlı tərəfi ilə əsla arası yoxdur!

Lakin bu da hamısı deyil. Paşinyan sovet marşalı, Azərbaycanda doğulmuş İvan Baqramyanı Hitlerin əlaltısı ilə bir pilləyə qoyub. “Yerevanda Njdenin abidəsi ilə yanaşı, Ermənistan-Türkiyə müharibəsinin digər iştirakçısı - marşal Baqramyanın abidəsi var. Ermənilər onları erməni tarixində oynadıqları rola görə qiymətləndirirlər”, - deyə o bildirib.

Baqramyan, eləcə də onun karyerasının bəzi səhifələri ayrıca söhbətin mövzusudur. Məsələn, o, “erməni burjua ordusunda” xidmət etdiyinə görə 1937-ci ildə edam edilmiş bir çox sovet generallarının aqibətini yaşamağa çox yaxın idi, lakin o vaxt yaxın dostu Anastas Mikoyan onu güllələnməkdən xilas etdi. Xilas etdi ki, sonralar o, əvvəlcə Kiyev strateji müdafiə əməliyyatında, sonra isə Qızıl Ordu üçün faciəli olan Xarkov əməliyyatında yüz minlərlə sovet əsgərini tələf etsin. Bu dəfə G.Jukovun ona zamin durması sayəsində güllələnmədən xilas oldu.

İ.V.Stalinin Cənub-Qərb cəbhəsinin komandanlığına 1942-ci il 26 iyun tarixli şəxsi məktubunda deyilirdi: “Biz - Müdafiə Komitəsinin üzvləri və Baş Qərargahdan olanlar burada, Moskvada yoldaş Baqramyanı Cənub-Qərb cəbhəsinin qərargah rəisi vəzifəsindən kənarlaşdırmağı qərara aldıq. Yoldaş Baqramyan Baş Qərargahı nəinki ordulararası ƏLAQƏ və RƏHBƏRLİYİ möhkəmləndirməli olan qərargah rəisi kimi, hətta cəbhədəki vəziyyət barədə Baş Qərargaha doğru-dürüst məlumat verməyə borclu olan sadə informator kimi də qane etmir. Üstəlik, yoldaş Baqramyan Cənub-Qərb cəbhəsində baş vermiş faciədən də ibrət dərsi götürə bilməyib. Cənub-Qərb cəbhəsi yarıyadək qalib gəldiyimiz Xarkov əməliyyatını öz yelbeyinliyi səbəbindən hansısa üç həftə ərzində nəinki uduzub, həm də 10-20 diviziyanın düşmənin əlinə keçməsinə rəvac verib. Bu faciə dəymiş ziyanın miqyasına görə eynən Rennenkampfın və Samsonovun Şərqi Prussiyada üzləşdikləri faciəyə bərabər tutula bilər. Baqramyan istəsəydi, bütün bu baş verənlərdən ibrət dərsi götürüb nəyisə öyrənə bilərdi. Təəssüf ki, hələlik bu, görünmür. Qərargahla ordular arasında əlaqə faciədən əvvəl olduğu kimi qeyri-qənaətbəxşdir, informasiya isə keyfiyyətsizdir...”

Sonra Stalin Baqramyanı 28-ci ordunun komandanı təyin edib və o, öz “qəhrəmanlığını” yeni vəzifəsində davam etdirib: 1942-ci il iyulun 7-də Rossoş şəhərini döyüşsüz tərk etmək əmrini verib. Bundan sonra Baş Qərargahda onun hərbi tribunala cəlb edilməsi barədə yenidən düşünməyə başlayıblar. Bu dəfə də onu G.K.Jukov xilas edib.

Baqramyan barəsində başqa bir epizod da məlumdur: onun komandanlıq etdiyi diviziyalar Riqa körfəzinə çıxanda, marşal sevinc içində şüşə qabı dəniz suyu ilə dolduraraq bu şad xəbəri çatdırmaq üçün həmin qabı adyutantı ilə Baş Qərargaha göndərib. Lakin adyutant gedib Kremlə çatan zaman qazanılmış mövqelər artıq itirilib və adyutant da bundan xəbərsiz olub. Stalin şüşəni əlində ora-bura fırladaraq Baqramyanın elçisinə deyib: “Baqramyana de ki, bu suyu haradan doldurubsa, oraya da boşaltsın”.

Amma gəlin fikrimizi yayındırmayaq. Əlbəttə, Baqramyanın səhvləri olub, lakin sonralar o, Sovet xalqının faşizm üzərində ümumi Qələbəsinə böyük töhfə verib, Njde isə əlindən gələni edib ki, bu Qələbə xalqımıza mümkün qədər baha başa gəlsin. Lakin Paşinyan Njdeyə bəraət qazandırıb deyəndə ki, o, Baqramyanla birlikdə türk-erməni savaşında döyüşüb, onda, əvvələn, “müharibə” dedikdə, Zəngəzurda silahsız dinc Azərbaycan əhalisinin amansızcasına qırıldığını ört-basdır edir, ikincisi, keçmiş “xidmətlərin” sonrakı cinayətlərə necə haqq qazandıra biləcəyi məsələsinə aydınlıq gətirmir. Axı elə həmin Andrey Vlasov da xain doğulmayıb, amma xainə çevrilib! Vlasov 1942-ci ildə əsir düşənə qədər həqiqətən faşistlərə qarşı qəhrəmancasına döyüşüb, lakin bu, onun satqınlığına əsla bəraət qazandırmır və onun üçün Moskvanın mərkəzində heykəl ucaldılmasına əsas vermir. (bax: https://ru.wikipedia.org/wiki/Spisok_liü,_liş nnıx_-zvaniə_Qeroə_Sovetskoqo_Soöza). Törətdikləri cinayətlərə görə müharibədən sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adından məhrum edilmiş şəxslərin siyahısı internetdə var. Elələri olub ki, qəhrəmanlıq göstərib Sovet İttifaqı Qəhrəmanı adına layiq görüləndən sonra əsir düşüblər və faşistlərlə əməkdaşlığa başlayıblar. Elələrinin də adları məlumdur ki, əvvəlcə polisay olub, partizanların və dinc əhalinin edamında iştirak ediblər, işğal olunmuş ərazilər azad ediləndən sonra isə öz cinayətkar keçmişini gizlədərək Qızıl Ordu sıralarına qatılıblar və hətta qəhrəmanlıq göstəriblər. Artıq ifşa olunandan sonra Sovet İttifaqı Qəhrəmanı adından məhrum ediliblər və labüddən məsuliyyətə cəlb olunublar. Atalar yaxşı deyib: “Bir qotur dana bir naxırı korlayar”, həqiqətən bir dəstə vətən xaini sovet xalqının Qələbəyə ümumi töhfəsinə kölgə salıb. Onlar artıq qəhrəman hesab edilə bilməzdilər və siz bu gün heç yerdə onların abidəsini tapa bilməzsiniz! Buna görə də Paşinyanın faşist Njdeyə abidə ucaldılmasına İkinci Dünya müharibəsindən 20 il əvvəl onun guya Türkiyəyə qarşı “qəhrəmancasına” döyüşməsi ilə haqq qazandırması insanları ələ salmaq və Vətən yolunda canından keçmiş 27 milyon sovet vətəndaşının sümükləri üzərindən yallı getmək deməkdir. Bu həyasızlığına görə Ermənistanın bütün rəhbərliyinə ar olsun!

Vətən xaininin nəvəsi Nikol Paşinyanın “əks-hücuma” keçərək Azərbaycanı .... “nasistləri qəhrəman kimi qələmə verməkdə” ittiham etməsi cəhdi isə onun səfehliyinin zirvəsi olacaq. Yox, siz əsla yanlış eşitməmisiniz! Ermənistanın baş naziri Berlində elə həmin çıxışında deyib: “Azərbaycanlılar Njde mövzusu ilə tez-tez spekulyasiya etməyi sevirlər. Lakin Rəsulzadə familiyalı bir şəxsi xatırlatmaq istəyirəm. O, Üçüncü Reyxin nasist ordusunun dəstə komandiri (orfoqrafiya saxlanılıb - AZƏRTAC-ın qeydi) olub və bu gün Bakıda onun abidəsi qoyulub, Azərbaycan paytaxtındakı küçələrdən birinə onun adı verilib”.

Bundan böyük cəfəngiyatı təsəvvürə gətirmək belə çətindir! Əvvələn, dünyada nüfuzu olan və özünə hörmət edən siyasətçi həmişə öz sözlərinin ağası olmalıdır. Dedinsə, dediyin sözlərin məsuliyyətini daşı. Qoy indi Paşinyan Rəsulzadənin abidəsinin şəhərin məhz hansı hissəsində yerləşməsi barədə bakılılara məlumat versin. Qoy ona və onun məlumatsız suflyorlarına məlum olsun ki, bu xadimin Bakıda abidəsi yoxdur və heç vaxt da olmayıb. İslam dünyasında ilk dünyəvi demokratik cümhuriyyətin banisinin büstü Rəsulzadənin doğma kəndində - Novxanıda qoyulub. Bu, işin faktoloji tərəfidir və gördüyümüz kimi, Paşinyanın faktlarla arası yoxdur. İkincisi, mülki şəxs Rəsulzadə heç vaxt “Üçüncü Reyxin nasist ordusunun dəstə komandiri” olmayıb. 1930-cu illərdə mühacirətdə yaşayan Rəsulzadənin İmperiyanın xarici siyasət idarəsinin Şərq şöbəsinin orta səviyyəli alman məmurları ilə həqiqətən bir neçə görüşü olub, lakin xüsusi qeyd edilməlidir ki, əlaqə yaratmaq təşəbbüsü məhz Almaniya tərəfindən gəlib.

Rəsulzadənin görüşdüyü ən yüksək mövqeli şəxs Almaniyanın sabiq səfiri olub. Almaniya tərəfi Rəsulzadə ilə əlaqə yaratmaq təşəbbüsünü irəli sürməklə, mümkün əməkdaşlıq üçün zəmin hazırlamağa çalışırdı, Rəsulzadə isə bu görüşlərə Almaniyanın Azərbaycana dair əsil niyyətini özü üçün aydınlaşdırmaq məqsədilə gedirdi. Lakin tezliklə məlum oldu ki, Almaniya tərəfinin ümidləri doğrula bilməz və tərəflər müxtəlif dillərdə danışırlar. Rəsulzadəni Azərbaycanın bir dövlətin tabeliyindən digər dövlətin əsarətinə keçməsi deyil, yalnız müstəqil olması maraqlandırırdı. Almanlar isə bunu vəd edə bilmirdilər. “Azərbaycan xalqını kommunizmdən xilas etmək niyyətinin əsla Azərbaycan xalqının ümumi azadlığına gətirib çıxarmayacağına” (Rəsulzadənin öz sözləridir) əmin olan Rəsulzadə nasistlərin əməkdaşlıq təklifini qətiyyətlə rədd edir, bu görüşləri dayandırır, Almaniyadan uzaqlaşır, çünki azərbaycanlılara bir əsarətin digəri ilə əvəzlənməsi (fərqi nədir: ya Keçəl Həsən, ya Həsən Keçəl) üçün döyüşmək təklif olunurdu. Üstəlik, Berlində Rəsulzadəyə daha ümidverici şəxs kimi baxmır, onu danışıqlar üçün arzuolunmaz şəxs hesab edirdilər. Odur ki, onlar da görüşlərdən imtina edirlər. Bundan sonra, 1943-cü ildə Rəsulzadə əvvəlcə Rumıniyaya, oradan isə Türkiyəyə gedir.

Hitlerə məmnuniyyətlə xidmət etmiş və vermaxtın tərkibində Erməni legionuna başçılıq etmiş Njde və Drodan fərqli olaraq, Məmməd Əmin Rəsulzadə nəinki nasistlərin tərəfində döyüşməyib, hətta onlarla əməkdaşlıq etməyib!

Bu təkzibedilməz faktlar fonunda Paşinyanın “Rəsulzadə Üçüncü Reyxin nasist ordusu dəstəsinə komandirlik edib” sözləri Ermənistanın baş nazirinin “mövzuya nə dərəcədə bələd olduğunu” əyani şəkildə nümayiş etdirir. Paşinyan ermənilərin mif yaradıcılığı üçün adi olan boşboğazlıqdansa, faktlarla tanış olsaydı, başa düşərdi ki, Rəsulzadə Tarix qarşısında tərtəmizdir və o, nasistlərə rədd cavabı verməklə, faktiki olaraq öz həyatını riskə qoyaraq qəhrəmanlıq edib. Özü də o, bunu Berlində olarkən edib. Bakıda abidəsi olmasa da, Dro və Njdedən fərqli olaraq, tarixə böyük şəxsiyyət kimi daxil olub və o, Bakıda abidə ucaldılmağa tamamilə layiq olan şəxsiyyətdir! Vətən xaininin nəvəsi nasistlərlə əməkdaşlığa razılıq vermiş adamla nasistlərə rədd cavabı vermiş şəxsiyyəti müqayisə etməyə necə cəsarət edir?! Gərək nə dərəcədə mənəvi cəhətdən kor olasan ki, hökumətin başçısı ola-ola, faktlara əsaslanmayan səfeh sözlərinlə açıqdan-açığa gülüş mənbəyinə çevriləsən!

Nasistlərin “A” ordu qrupunun 17-ci ordusunun tərkibində yaradıqları 804 nömrəli Azərbaycan batalyonuna isə Əbdürrəhman Fətəlibəyli-Düdənginski başçılıq edib, erməni həmkarları Njde və Drodan fərqli olaraq, o, Azərbaycanda heç vaxt qəhrəman kimi qələmə verilməyib və 1954-cü ildə Münxendə çekistlərin xüsusi əməliyyatı gedişində öldürülüb. Qoy Paşinyan, heç olmazsa, düşünsün: Berlindəki rüsvayçı çıxışında dediyi kimi, əgər Rəsulzadə “Üçüncü Reyxin nasist ordusunun dəstə komandiri idisə, onda nə üçün ona nə Nürnberq tribunalı maraq göstərib, nə də gizlənmiş nasist əlaltılarını ələ keçirməyə çalışan sovet xüsusi xidmət orqanları? Nə üçün RF XİN-in yuxarıda sözügedən sənədində Qaregin Njdenin adı açıq göstərilir, Rəsulzadənin adı isə nəinki xatırlanmır, hətta Azərbaycanda nasizmə bəraət qazandırılması cəhdləri barədə bir kəlmə də yoxdur. Cavab verin, Nikol, nə üçün Njdenin adı xatırlanır, amma Rəsulzadənin adı çəkilmir? Nə üçün Rusiya XİN-in mətbuat katibi Mariya Zaxarova ermənilərin REQNUM agentliyinin “Azərbaycanda Hitler kollaborasionisti Məmməd Əmin Rəsulzadənin abidəsinin qoyulması” barədə sualını dinlədikdən sonra Akopyan-Kolerov agentliyinin bu sualını açıq-aşkar fitnəkar xarakterli sual adlandırıb və son dərəcə aydın şəkildə deyib: “REQNUM” Rusiyanın bu abidələrə dair mövqeyinə son 15 il ərzində nə vaxtsa maraq göstəribmi? Nə üçün agentliyin İkinci Dünya müharibəsinin tarixi ilə bağlı abidələrə marağı Azərbaycan-Ermənistan münasibətləri kontekstində yaranır?”. Bu ona görə deyilmi ki, Moskva kimin nasist tör-töküntüsü olduğunu, kimin öz şərəfli adını qoruyub saxladığını erməni məddahlarından daha yaxşı bilir? Bu ona görə deyilmi ki, aralarında yerlə-göy qədər fərq olan iki şəxsiyyətin REQNUM agentliyi tərəfindən bərabər tutulması Rusiya XİN-i hiddətləndirib? Axı Smolensk meydanı məhz bu məsələyə yanaşmadan danışarkən, diqqəti bu yanaşmaları və deməli, Rəsulzadənin adı ətrafında bütün konsepsiyanı və faktologiyanı agentliyin bilməməsinə cəlb edərək, əslində, erməni təbliğat maşınının rusiyalı lobbiçilərini haqlı olaraq alçaldıb. Bu da RF XİN-in parlaq və çox sərrast cavabı olub, amma heç də təəccüblü deyil ki, bu cavab Yerevanda eşidilməyib.

Odur ki, bizdən sizə yaxşı məsləhət, Nikol: cinayətkarları pisləyin və bu rüsvayçılıqdan mümkün qədər tez təmizlənin! Qaregin Njdenin, Drastamat Kanayanın, babanız Nikol Paşinyanın, ASALA terrorçularının və türk diplomatlarının qorxaq qatillərinin yeri Tarixin zibilliyindədir. Sizin heç bir saxtalaşdırılmış replikanız, fərqi yoxdur, istər Aşqabadda, istər Berlində, yaxud hər hansı başqa kürsüdən və ya REQNUM-dakı boşqab yalayanlarınız tərəfindən səslənmiş olsun, Tarixin bu tör-töküntülərinə bəraət qazandıra bilməz. Siz bunu nə qədər tez anlasanız, gələcəkdə bir o qədər az gülünc vəziyyətə düşüb rüsvay olarsınız.

Əlbəttə, əgər bu, sizin üçün əhəmiyyətlidirsə.

# Mehdi Balabəyov: “Zirvə görüşü İlham Əliyevin dünyada böyük nüfuza malik olduğunu göstərir”



“Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Bu Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Və keçirilən bu görüş də bir daha göstərdi ki, Azərbaycan və Onun liderinə dünyada olan inam, etibar və etimad yüksəkdir”. Bu fikirləri SİA-ya açıqlamasında YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov deyib.

YAP rayon təşkilatının sədri bildirib ki, BMT baş katibi cənab Antonio Quterreşin və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelin, BMT Baş Assambleyasının prezidentinin, Afrika İttifaqının sədri, ÜST Baş direktorunun, o cümlədən 40-a yaxın ölkənin dövlət və hökumət başçısı pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətini təqdir edərək, dövlət başçımıza təşəkkür ediblər: “Bu bir daha Azərbaycan və onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun əyani göstəriciləridir. Məhz onun bu liderlik qabiliyyətinin nəticəsindir ki, bəşəriyyətin qlobal koronavirus pandemiyası ilə müharibə apardığı bir dövrdə dünyanın ikinci ən böyük beynəlxalq təşkilatının Zirvə görüşü baş tutdu”.

M.Balabəyov onu da vurğulayıb ki, Azərbaycan hər zaman qlobal problemlərin həllində körpü rolunu oyanyıb: “Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq Bakı beynəlxalq humanitar və digər qlobal problemlərin həlli məsələsində bir dialoq mərkəzinə çevrilib. O baxımdan Azərbaycan qlobal pandemiya şəraitində dövlətlər və xalqlar arasında əlaqələr qurub, körpü yaratması indiyədək yürüdülən siyasətin məntiqi nəticəsi kimi dəyərləndirmək lazımdır. Qlobal əməkdaşlığa güclü ehtiyac duyulduğu bir şəraitdə belə bir addımı atmalı olduğu halda, dövlətlər, eləcə də bir sıra beynəlxalq və regional təşkilatlar adekvat reaksiya göstərə, beynəlxalq həmrəyliyin gücləndirilməsi ilə bağlı zəruri addımlar ata bilməyərək sanki “özünaqapanma sindromu”na qapıldıqlarından bunu edə bilmədi”.

Rayon təşkilatının sədri qeyd etdi ki, Azərbaycan bir daha təsdiq etdi ki, Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə əməli surətdə yerinə yetirir: “Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə Görüşü göstərir ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verməsinin bariz nümunəsidir. Bununla da Azərbaycan əməli fəaliyyəti ilə dünyaya sübut etdi ki, koronovirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək verib və bu istiqamətdə real addımlar atıb. Prezidentin bütün bu səyləri Azərbaycan beynəlxalq aləmdə nüfuzunun, inam və etimadın artaraq möhkəmlənməsinə xidmət edir. Prezident İlham Əliyev bir daha beynəlxalq aləmə sünut etdi ki, Azərbaycan dövləti ərazicə kiçik, əhalisinin sayına görə az olsa da, sözün əsl mənasında güclü dövlət və böyük xalqdır. Biz bunun koronavirus pandemiyasına qarşı apardığı effektiv mübarizə və bunun nəticəsində ölkəmizdə vəziyyətin nəzarətə götürülərək, daha az itki ilə çıxmaq istiqamətində həyata keçirdiyi fəaliyyətdə şahidi olduq. Ölkə başçısının tapşrığı ilə Azərbaycanda iqtisadi sabitliyi qorumaq, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3.5 milyard manatdan çox sosial-iqtisadi dəstək paketi qəbul olunub. Bütün bunlar Prezident İlham Əliyevin dünya səviyyəli uzaqgörən, müdrik liderlik qabliyyətinə malik olmasının bariz göstəricisidir.

Bir sözlə, Zirvə görüşü BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilat - Qoşulmama Hərəkatının digər beynəlxalq təsisatlar və dünya birliyi ilə əməkdaşlığa hazır olduğunun bir daha nümayiş etdirdi. Eyni zamanda Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycanın üzərinə düşən məsuliyyətin öhdəsindən layiqincə gəldiyinin təsdiqi oldu”.

***RƏFİQƏ HÜSEYNOVA***

# “Ölkədə islahatlar müvəffəqiyyətlə davam etdiriləcək”



Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin baş prokuror Kamran Əliyevi videoformatda qəbulu zamanı söylədiyi fikirlər cəmiyyətimizin sağlamlaşdırılması ölkəmizin inkişafı, əhalinin sosial rifah halının yaxşılaşdırılması, insana qayğı, diqqət və xidmət baxımından çox əhəmiyyətlidir və hər bir məmurun, vəzifə sahibinin, eləcə də vətəndaşın vəzifələrini müəyyən edir. Bu sözləri SİA-ya müsahibəsində Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, qanunçuluğa əməl etmək, korrupsiyanı aradan qaldırmaq, neqativ halların kökünü kəsmək prezident seçildiyi ilk gündən Cənab İlham Əliyevin həyat amalına çevrilmişdir və bu sahədə çox mühüm tədbirlərin həyata keçirilməsi bunu deməyə əsas verir.

“Elə bir görüş, müşavirə, toplantı olmaz ki, orada Cənab Prezident qanunun aliliyinə istinad etməmiş, korrupsiyaya qarşı mübarizədən, qayda-qanuna əməl olunmasından söz açmamış olsun. Çünki, ölkədə qanunun aliliyi təmin olunmadan heç bir islahatdan, əhalinin sosial rifahının yaxşılaşmasından danışmaq mümkün deyil. Məhz buna görə də ölkə başçısı müvəffəqiyyətlərimizin əsasını qayda-qanunun gözlənilməsində, sabitliyin qorunub bərqərar edilməsində görür və baş prokurorun qəbulu zamanında da bu amillərə böyük önəm verildi.

Bu gün Azərbaycanın sürətlə inkişaf etdiyi bir dövrdə bütün sahələrdə, məhkəmə hüquq sistemində, icra və qanunvericilik orqanlarında, həyatımızın mühüm sahələrində islahatların aparıldığı əhalinin sosial rifahının yaxşılaşdırılması üçün lazımi tədbirlərin görüldüyü vaxtlarda qanunvericiliyin möhkəmləndirilməsi xüsusi əhəmiyyət daşıyır və Cənab Prezidentin də bunu öz çıxışında dönə-dönə xatırlatması səbəbsiz deyildir. Əhalinin islahatların keçirilməsinə, onlara göstərilən sosial qayğıya müsbət münasibət bildirdiyi bir vaxtda bəzi vəzifə sahiblərinin qanunları pozması, rüşvət alması, insanlara ayrılan sosial müavinətlərə, yardımlara göz dikməsi, sahibkarları incitməsi, özünü təkəbbürlü, əlçatmaz kimi aparması inkişafımıza əngəldir, cəmiyyətə ləkədir və əlbəttə belə hallar ölkə rəhbərini narahat etməyə bilməz.

Cənab Prezidentin apardığı islahatlara, sosial sahədə görülən tədbirlərə, pensiyaların, müavinətlərin, yardımların ildən-ilə artırılmasına, sosial xidmətlərə kölgə salmaq, qanunlara əməl etməmək, tapşırılan vəzifəni yerinə yetirməmək, verilmiş səlahiyyətlərdən çikin məqsədlər üçün istifadə etmək yolverilməzdir əsl mənada xalqa düşmənçilikdir. Sözsüz ki, belə halların qarşısı ölkədə qətiyyətlə alınır və son aylarda həbs edilən bir çox vəzifə sahiblərinin aqibəti buna sübutdur. Cənab prezident bütün çətinliklərə baxmayaraq bundan sonra da ölkədə islahatların müvəffəqiyyətlə davam etdiriləcəyini, sosial vəziyyətin yaxşılaşdırılacağını və qayda-qanunun hər bir vasitə ilə təmin ediləcəyini bəyan edir və həyata keçirdiyi tədbirlərlə insanların sağlamlığının, təhlükəsizliyinin təminatçısı olduğunu göstərir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# ABŞ-ın Arizona ştatının paytaxtında 28 may Azərbaycan Milli Günü elan edilib



A PROCLAMATION

On May 28, 1918, the Azerbaijan Democratic Republic became the Islamic world's first secular democracy. Three years later, the Soviet Union invaded and ended its short-lived independence.

In 1991, however, the nation of Azerbaijan was reborn after the collapse of the Soviet Union. The United States of America was one of the first countries to recognize the Republic of Azerbaijan and soon after its independence, it established full-fledged diplomatic relations with it.

For almost 30 years, the Republic of Azerbaijan has consolidated its freedom and independence. It has become one of the world's fastest developing countries, the largest economy of the region and the biggest U.S. trade partner in the southern Caucasus region.

Every year, millions of Azerbaijanis around the world, including tens of thousands in the U.S. and many in the City of Phoenix, observe May 28th as Azerbaijan National Day. They remember the contributions of their forefathers to the spread of democracy in nearby regions, as well as Central Asia and the Middle East, as well as celebrate the remarkable achievements and accomplishments made by Azerbaijan as a free and independent nation.

NOW, THEREFORE, I, KATE GALLEGO, Mayor of the City of Phoenix, Arizona, in accordance with the law, do hereby proclaim May 28, 2020 as

AZERBAIJAN NATIONAL DAY

in the City of Phoenix and urge all Phoenicians to join me in celebrating Azerbaijan's list of milestones and achievements.

ABŞ-ın Arizona ştatının paytaxtı Finiks şəhəri 28 mayı Azərbaycan Milli Günü elan edib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a verilən məlumata görə, bununla bağlı şəhər meri Keyt Qayeqo tərəfindən müvafiq bəyannamə imzalanıb.

Baş konsulluğa göndərilmiş bəyannamədə Azərbaycan xalqının müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı vurğulanır. Bəyannamədə Azərbaycanın 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ABŞ-ın ölkəmizi tanıyan və onunla diplomatik münasibətlər quran ilk dövlətlərdən biri olduğu bildirilir. Ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra öz suverenliyini və müstəqilliyini gücləndirdiyi, dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrildiyi, bu gün regionun ən böyük iqtisadiyyata malik ölkəsi və ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğu vurğulanır.

Bəyannamədə, həmçinin ABŞ və Finiks şəhəri də daxil olmaqla, bütün dünyada yaşayan milyonlarla azərbaycanlının 28 may tarixini Azərbaycanın Milli Günü kimi bayram edərək, öz əcdadlarının ətraf regionlarda, o cümlədən Mərkəzi Asiya və Yaxın Şərq regionlarında demokratiyanın yayılmasına verdiyi töhfələri xatırladığı və Azərbaycan Respublikasının azad və müstəqil dövlət kimi önəmli uğurlarını qeyd etdiyi bildirilir. Bəyannamənin sonunda mer K.Qayeqo 28 may tarixini Finiks şəhərində Azərbaycan Milli Günü elan edir və şəhər sakinlərini bu bayramı və Azərbaycanın uğurlarını qeyd etməyə çağırır.

# Elektron vizanın verilməsinə dair yeni prosedur qaydası açıqlandı




Birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsinə yeni prosedur qanunvericiliyə daxil edilib. SİA-nın məlumatına görə, bu, Milli Məclisin dünən keçirilən iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılan “Turizm haqqında” qanuna və Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliklə əksini tapıb. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli fərmanı “ASAN Viza” sistemi haqqında Əsasnamə”də dəyişiklik edilib, elektron viza birdəfəlik və çoxdəfəlik elektron vizalara bölünüb. Müəyyən edilib ki, birdəfəlik və çoxdəfəlik elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 iş günü müddətində, birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə ən geci 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində verilir. “Turizm haqqında” qanuna və Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, bu prosedur qanunvericilikdə əksini tapacaq. Eyni zamanda Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə real vaxt rejimində “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparılacaq, imtina üçün əsas olmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada viza veriləcək. Qanun layihələri səsverməyə çıxarılaraq qəbul edilib.

***Nailə Məhərrəmova***

# Ekspert rəyi: “Dünyada hasilat azalır, neftə tələbat isə artır”

“Hazırda, “Brent” markalı neftin bir barelinin qitməti 35 ABŞ dolları civarındadır. Bazarda baş verən dəyişikliklərin nəticəsidir ki, ötən həftədən başlayaraq neftin qiymətlərində artım müşahidə edirik”. Bu sözləri SİA-ya açıqlamasında Neft Araşdırmaları Mərkəzinin rəhbəri, neft məsələləri üzrə ekspert İlham Şaban ABŞ-da və bir sıra neft ixrac edən ölkələrdə xam neft ehtiyatlarının azalmasının neft bazarına təsirlərindən danışarkən deyib. Onun sözlərinə görə, artıq 2 həftədir ki, Amerika Birləşmiş Ştatlarında neft hasilatı azalmağa davam edir və bununla yanaşı digər neft istehsal edən ölkələrdə də eyni hall yaşanır: “Amerika Birləşmiş Ştatlarında neft hasilatı hələ ki, müşahidə etdiyimiz qədərilə iki həftədir azalmağa davam edir. O cümlədən, Çin Xalq Respublikasında hasilatın artdığı müşahidə edilir. Digər tərəfdən Körfəz ölkələrində hasilat azalıb. Həmçinin, Səudiyyə Ərəbistanında neft hasilatı azalır, o cümlədən, Nigeriyada da hasilatın azaldığı müşahidə edilir. Bu təbii ki, bazara müsbət təsir etdiyindən neftin qiymətlərində artıq artım müşahidə olunur. Hazırda, “Brent” markalı neftin bir barelinin qitməti 35 ABŞ dollardan yuxarı həddə keçid edir. Bütün bunların nəticəsidir ki, ötən həftədən başlayaraq neftin qiymətlərində biz bu artımı müşahidə edirik. Bunun nə qədər davamlı olması yenidən bazara neft ixrac edən və neft hasilatçı əsas ölkələrdəki bu informasiyaların bazarda yenilənməsindən asılı olacaq”.

Belə ki, bazarda neft qiymətlərindəki bu artım tempi davam etdiyi müddətdə yaxın dövr ərzində neftin qiymətinin 40 ABŞ dollarının üstündə bərqərar olma ehtimalı haqqında fikir söyləyən ekspert qeyd edib ki, hazırda bu, mübahisəli məsələdir: “Neftin bir barelinin qiymətinin 40 ABŞ dollarına çatması üçün kifayət qədər bazarı sıxışdırmaq lazımdır. Çünki, bazarda neftin həcmlərinin azalması və tələbatın artması ilə bağlı bazarda kifayət qədər tutumlu, inandırıcı yeni, bazar iştirakçıları tərəfindən inandırıcı qəbul edilən informasiya olmalıdır ki, neft öz dəyərini 35 ABŞ dolları həddindən 40 ABŞ dolları həcminə çatdıra bilsin”.

***Nigar Məmmədova***

# "Milli Şura" və radikallar üçün sonun başlanğıcı

***Uzun zamandır özünü siyasi səhnədə təsdiq etməyə çalışan, dəfələrlə mitinq adı verdikləri məhdud sayda insanların toplaşması ilə lovğalanmağa cəhd edən, yalnız özləri tərəfindən "Milli Şura" adı verilən dırnaqarası bir qurumun acınacaqlı aqibəti, məntiqi sonluğu, süqutu ictimaiyyətin diqqətindən kənarda qala bilməz. Cəmiyyətimiz bu qondarma qurumun mahiyyətinin nədən ibarət olduğunu bilirdi və cılızlığının bir də, daha doğrusu, son dəfə şahidi oldu. Ona görə son dəfə ki, bundan sonra, son hadisələrdən sonra belə bir qurumun varlığı, mövcudluğu barədə kimsə təminat verə bilməz.***

Cəmil Həsənlinin hər nitqində pafosla danışıqları bura qədər imiş və elə Əli Kərimlinin də bu şuraya ümudləri burada bitəcəkmiş. Əslində, bu şuranımı deyək, ya bir neçə nəfərin toplaşdığı qurumunmu deyək, hər nə isə, aqibətini hər kəs təsəvvür edirdi. Amma bu qədər acınacaqlı şəkildə sonluq bir növ ədalətliliyinə görə geniş ictimaiyyətin ürəyincə oldu desək, yanılmarıq. Çünki, Amerikada yaşayan bir bloggerə "gey" deməyin bu qurumun məhvi üçün kifayət etməsi, sözün həqiqi mənasında bunların çəkisinin göstəricisi sayılır. Etiraf edilməlidir ki, bu çox utancverici bir aqibətdir və bəlkə də tarixdə bənzəri olmayan rəzil bir sonluqdur.



Maraqlıdır, "gey", "üzdəniraq" adlandırdığı birilə təsadüfi toqquşmadan belə özünü itirən, dağılan bir qurum hakimiyyətlə mübarizəyə hansı üzlə qalxmışdı? Yaxud, cəmi bircə blogerlə, özü də bütövlükdə bir təşkilatla da yox, arientasiyasını dəyişən, özlərinin də "gey" adlandırdığı bircə nəfərlə mübarizə edən də deyil, sadəcə toqquşan və bununla da məhvə sürüklənən bir qurum hakimiyyətlə hansı təminatla, hansı güclə, hansı potensialla mübarizəyə girişirdi?

Sözsüz ki, bir blogerin "gey" olduğunu qabartmaq "Milli Şura"nın parçalanması ilə nəticələndisə, hər bir məqam bəlli oldu. Bəlli oldu ki, bu şuranın cəmi bircə "gey"in təsirinə, müqavimətinə dözəcək boyda bir gücü, dözümü olmayıb. Biçarələrin bu birçə "gey"in belə müqaviməti qarşılığında heç istinad nöqtəsi də yox imiş, baxmayaraq ki, arxa, dayaq kimi Amerikanı, Avropanı əllərində az qala bayraq etməyə çalışırdılar. Soruşmaq ayıb olmasın, hanı bəs bunların arxasında dayanan demokratik təsisatlar, xarici havadarlar? Hanı bəs bunların Con əmiləri ki, gəlib bircə "gey"lə mücadilələrinə köməklik edə, məsələnin bunların xeyrinə dəyişməsinə yardımçı olaydı? Hanı bunların o Amerika, Avropa deyən dilləri? Qurudumu? Bu vaxta qədər ağızlarına çullu dovşan sığışmayanların hər sözünün yalan, şişirtmə, uydurma olduğu da bununla öz təsdiqini tapdı.

Xatırladaq ki, bir qədər əvvəl bu şuranın qurucularından və sayılıb-seçilən simalarından biri, daha dəqiq desək, Eldəniz Quliyev Amerikada yaşayan bir blogerə "gey", "üzdəniraq" deyərək şuranın gündəmini zəbt etdi. Onu da qeyd edək ki, bu şura qurucularından biri olan dırnaqarası qəhrəmana "züy" tutanlar da oldu, özü də lap yaxın silahdaşları. Hətta, Eldəniz bir qədər də irəli gedib, İsmayıl Cəlilov adlı həmin "gey" blogerin bədənindəki başından böyük girdə əzasına da kinayə ilə ünvanlandı. Müxtəlif ibarələr işlətdi və təhqir etdiyini, onu əzdiyini, bəlkə də üzərində qalib gəldiyini zənn etdi. Amma, sonda Eldəniz Quliyev başa düşdü ki, Amerikada yaşayan o "gey" blogerin həmin o girdə əzası "Milli Şura"dan daha güclü, daha hünərli, daha bacarıqlı, daha yararlı, hətta daha qiymətli imiş.

Məsələ get-gedə bir az daha mürəkkəb xarakter alır. Özü də təkcə məhv olma ərəfəsində olan "Milli Şura" üçün yox. Elə Əli Kərimli üçün də, Cəmil Həsənli üçün də, yeri gələndə lap elə onların yaxın ətrafında olan bütün qrantyeyənlər üçün də. Çünki, qrantyeyənlərin "gey"ə ünvanlanan bu şəkildə çıxışları onları "yedirdən", yeri gələndə "dəstək" də verən nə Avropa və nə də Amerikanın xoşuna gələn deyil. Hansısa "gey", yaxud "üzdəniraq" deyilən psixi problemli birini müdafiə etmək kimi əsla bir niyyət ola bilməz. Sadəcə, Kərimlilər, Həsənlilər dərk etməli və gözlərinin qarşısına almalı idilər, elə Eldəniz Quliyev özü də bilməli idi ki, qrantını yediyi, dəstəyinə güvəndiyi qüvvələrin demokratiya anlayışında onların bu mövqeləri heç də xoşagələn ola bilməz. Çünki, bu şəkildə davranışlarını onlar "homofob" adlandırırlar və bunu da demokratiyadan kənar hesab edirlər. Homofobiya sosioloji institutlarda Rasizim, Ksenofobiya, Antisemitizm, Seksizm kimi anlayışlarla bir sıraya qoyulur. Avropa Parlamenti Homofobiya haqqında 2006-cı ildə Qətnamə də qəbul edib. Həmin qətnamədə homofobiya homoseksuallığa qarşı irrasional qorxu və nifrət kimi təsvir edilir ki, bu hal önyarğıya əsaslanır və Rasizm, Ksenofobiya, Antisemitizm və Seksizmə oxşardır. Belə olan halda, Amerikada, Avropada olan "əmi"ləri heç də bu şuranı bundan sonra dırnaqarası da olsa, demokratiya axtarışında olan bir qurum kimi tanıya və dəstəkləyə bilmir. Ən azından özlərinin xatirinə bu dəstəkdən imtina etmək məcburiyyətindədirlər. Ən azından özlərini demokratik göstərmək xatirinə "Milli Şura" adlandırılan, amma milli heç bir xüsusu olmayan bu qurumu müdafiə etməkdən boyun qaçırmaq kimi bir yol qalır. Bu isə nəticə etibarı ilə ondan xəbər verir ki, milli, milsiz olmasından asılı olmayaraq Kərimlilərin, Həsənlilərin və onlarla həmrəng olmasa da həmxasiyyət olanların qrantı da, dəstəyi də kəsilir və bu da "Milli Şura" və radikallar üçün sonun başlanğıcı deməkdir.

Diqqət çəkən məqamlardan biri də odur ki, Eldəniz Quliyev öz profilindəki paylaşımında Amerikada ərə getməyi ilə fəxr edən bir üzdəniraq hücumlarından çəkinən Cəmil Həsənlinin onu "Milli Şura"ya problem yaratmaqda ittiham etməsidir. Bu adam yazır ki, yatıb heç yuxuda da görə bilməzdi ki, xalqın, o cümlədən demokratik düşərgənin illər boyu inandığı, ümid bəslədiyi, bel bağladığı, etimad göstərdiyi siyasi lider və ya liderlər homoseksuallara bu qədər sevgi nümayiş etdirərlər. Əslində, bu fakt qeyd etdiyimiz kimi həmin şuranın qurucularından birinin şuraya da, onun sədrinə də ikrah hissinin, nifrətinin təsdiqidir. Elə bu hiss də ola bilsin ki, onun bu şuranı tərk etməsinə əsaslı zəmin yaradıb. Amma, yenə də etiraf edilməlidir ki, Eldəniz sonuncu olmayacaq və həmin o ikrah hissi çoxlu sayda Eldənizlərin olacağını deməyə əsas verir. Yəni, Eldəniz Quliyevin "yatıb yuxumda da görə bilməzdim" düşüncəsində olan şura üzvləri az deyil. İndi yeri gələndə Cəmil Həsənlinin onları yox, adi bir "gey"i müdafiə edəcəyinə onların hər birində zərrə qədər şübhə yeri yoxdur. Belə olan halda bir adam belə şurada qala bilməz və bu da o deməkdir ki, Eldənizin ardınca hələ böyük sürətlə şuradan imtina edənlər olacaq. Bu isə o deməkdir ki, ən yaxın zamanda şurada uzaq başı bircə dənə Cəmil Həsənli qalacaq. Necə deyərlər, bir özü ölacaq, bir də kimsənin olmadığı şurası. Əslində, Həsənlinin zərrə qədər ağlı olsaydı bu şuranın başını artıq buraxardı. Elan da edərdi ki, şura buraxıldı və üzüsulu bir tərəfə çəkilib, necə deyərlər, ayıbına kor olardı. Onsuz da divardan tuta-tuta gedən və divar qurtaracağında nə edəcəyini bilməyən şura elə kor durumdadır.

*İnam Hacıyev*

# Müxalif partiya sədrindən Milli Şuraya ittiham: "Bu bolşevizm prinsipidir"



***Yarandığı gündən dövlət, dövlətçilik əleyhinə fəaliyyətləri, milli mentalitetə, milli maraqlara zidd davranışları ilə cəmiyyətdə ikrah hissi yaradan Milli Şura adlanan qurumda baş verən son proseslər bir daha bu qurumun əsl mahiyyətini ortaya qoymuş oldu. Ard-arda bir neçə nəferin adıçəkilən qurumdan istefa verməsini həzm edə bilməyən Milli Şura rəhbərliyi öz trolları, əlaltıları vasitəsilə təşkilatı tərk edənləri təhqir etdirdi, onları düşmən çıxartdı.***

Milli Şura adlanan qurumda baş verən bu antidemokratik proses heç şübhəsiz ki, ölkədə fəaliyyət göstərən konstruktiv müxalifət partiyaları tərəfindən də izlənilir və haqlı olaraq kəskin tənqid edilir. Elə Milli Vəhdət Partiyasının sədri Yunus Oğuz da verdiyi müsahibədə Milli Şura adlanan qurumda baş verən proseslərə nəzər yetirərək bu davranışı bolşevizm kimi xarakterizə edib.

***-Yunus bəy, son günlər siyasi səhnədə müşahidə edilən mənfi tendensiyalardan biri də Milli Şura adlanan qurumda baş verən proseslərdir. Belə ki, adıçəkilən qurumun onlayn toplantısı zamanı Milli Şuradan istefa verən, onun rəhbərliyi ilə eyni fikiri, düşüncəni bölüşməyənlər tənqid, hətta təhqir olundu. Demokratiya, insan haqlarından danışan bir qurumda baş verənlər elə əsl antidemokratiklik, insan haqlarının pozulması demək deyilmi?***

- Əslində ortalıqda bir şey olmayanda, pozitiv, kreativ təkliflərlə çıxış etməyəndə, 1992-93-cü ilin ab-havası ilə yaşayanda belə də olacaqdı.Bu bolşevizm prinsipidir. Yəni, kim bizim fikrimizlə razılaşmırsa düşməndir. Bu, Leninin tezisidir. Bu fikirdən, düşüncədən təəssüf ki, azad ola bilmirlər. Hesab edirəm ki, bu çox təhlükəli bir fikirdir. Söhbət diktaturadan gedir. Hətta söhbət liderin kreativ fikirindən (əgər kreativ fikirlər varsa) yox, liderin fikirlərini bölüşməyən, onunla razılaşmayanların düşmən elan edilməsindən gedir. Bu da demokratiya ilə tamamilə daban-dabana ziddir. İstəsən də, istəməsən də demoktatik bir ölkədə yaşayırıq, hər kəs mətbuatda, sosial şəbəkələrdə fikirlərini azad şəkildə, demoktatik qaydada söyləyə bilir və onlara qarşı da heç bir təqib, təzyiq yoxdur. Mövcud olan şərait də öz növbəsində hər kəsdə belə bir əminlik yaradır ki, demoktatik şəraitdə, heç bir təzyiq olmadan öz fikirlərimi ifadə edə bilərsən. Ancaq təəssüflər olsun ki, Milli Şura adlanan qurumda biz bunu müşahidə etmirik. Milli Şuranın üzvündən kim həmin qurumun liderindən, sədrindən fərqli bir fikir söyləyirsə, dərhal düşmən elan edilir. Konkret olaraq həmin təşkilatda bir prinsip işləyir. Kim sədrin fikrini bölüşmürsə, o düşməndir. Bolşevizm təfəkkürü budur. Leninin, Stalinin fikrini bölüşməyənlərin hamısı güllələnirdi. Bunun fövqündə isə hakimiyyət uğrunda mübarizə aparmaq çox təhlükəli bir şeydir. Biz faktiki olaraq ölkəyə diktaturanın gətirilməsinə cəhdin şahidi oluruq. Biz sovet diktaturasından xilas olsaq da, görünür Milli Şuranın diktatura tətbiq etmək cəhdi hələ də davam edir. Onu da qeyd edim ki, Lenin kifayət qədər ağıllı adam idi, lakin bunlardan heç biri Lenin qədər, aktiv, fəal, kimdənsə asılı olmayan adam deyillər.

***-Təşkilat daxilində demokratiya, fikir azadlığına şərait yaratmayan birinin hakimiyyətdən eyni şeyləri tələb etməsi absurd deyilmi?***

- Məsələ ondadır ki, bütün partiyalar, cəmiyyətin özü sosial dialoqa gedir. Koronavirus pandemiyası da bunu göstərdi. 90-95 faiz bu prosesdə maraqlı olduğunu nümayiş etdirdi. Heç şübhəsiz ki, hakimiyyət qızıl onluq deyil ki, hamının xoşuna gəlsin. Bu normal bir şeydir. Ancaq toplumdan çıxıb, nizam-intizama söykənən, lazım gələndə fərqli fikir ortaya qoyan insanlar kifayət qədərdir. Hakimiyyət də bu gün öz növbəsində demokratiya istəyir, xaos yox. Ancaq onlayn formada Milli Şuranın toplantısını keçirən insanlar xaos tərəfdarıdırlar. Artıq onlar öz aralarında belə xaos yaratdılar, ağız deyəni qulaq eşitmədi. Demokratiya o demək deyil ki, kim nə deyirsə, o da olmalıdır. Demokratiyada ən yaxşının yaxşısını götürməlisən. Bunlar isə ən pisin pisini götürürlər.

***- Hətta müzakirələrdə küçə söyüşlərindən belə istifadə edirlər***

- Ona görə deyirəm ki, hələ də 1992-93-cü ilin ab-havasından ayırmayıblar, hələ də o inersiya ilə gəlirlər ki, bəlkə bir gün qayıtdıq. Ancaq müxalifət düşərgəsində kifayət qədər sağlam insanlar var ki, artıq ağıllı addım atır və başa düşürlər ki, müstəqil dövlətin müstəqil meyarları var və həmin meyarlara əməl etmək lazımdır. Dövlət qanunları, qaydalarına riayət etmək şərtdir. O səbəbdən hesab edirəm ki, həmin qüvvələr də xaos deyil, demokratiyanı təbliğ etməlidirlər. Ancaq bir şərtlə ki, demoktatiya adı altında xaos təbliğ edilməsin.

***- Yunus bəy, bir məsələyə diqqət edək. Mili Şura adlanan qurumun həmin onlayn toplantılarından birində bu qurumu tərk edənlər, digər siyasi partiyalarla yanaşı, cinsi azlıqlar da təhqir edildi. Sonradan cinsi azlıqlardan üzr istənilsə də, lakin keçmiş müttəfiqlərindən üzr istəməyi lazım bilmədilər. Sizcə bu nədən xəbər verir, yaxud bu qüvvələrin cinsi azlıqlara hansısa formada bağlılığı varmı?***

- Bağlılıqları birbaşadır. Azərbaycan mentalitetinə uyğun olmayan, Avropa mədəniyyəti, kosmopolit, cinsi azlıq mədəniyyətini təbliğ edirlər ki, məhz ona görə də maliyyələşirlər. Ona görə də hesab edirəm ki, birbaşa bağlılıqları var. Əks təqdirdə cinsi azlıqlar kimi tənqid, təhqir etdiyi üzvlərindən də üzr istəyərdilər. Bu gün ölkədə milli-mənəvi dəyərlərimizin daha da gücləndirilməsi xətti götürülüb. Həmin siyasi qüvvələrə isə bunun əksi tapşırılıb, qarşılarında şərt qoyulub. Bəlkə də nə zamansa şərtlər, müqavilələr, razılaşmalar üzə çıxacaq ki, yuxarıda qeyd etdiyimiz mentalitetimizə zidd fəaliyyətləri həyata keçirmək bu həmin siyasi qüvvələr qarşısında qoyulub. Əks təqdirdə onların maliyyələşdirilməyəcəyi bildirilib.

***- Necə ki, vaxtı ilə Avropa Şurası ilə eyni tipli razılaşmanın əldə edildiyi, Qarabağ probleminin həllində müharibə variantına üstünlük verməyəcəkləri barədə razılıq əldə edilib***

- Bəli, elədir. Nə zamansa həmin müqavilələr üzə çıxacaq ki, Qarabağ məsələsində yumşaq addım atacağıq, yaxud Qarabağ bizə lazım deyil, yalnız hakimiyyət bizə lazımdır. Əslində bəzi məsələlər yavaş-yavaş üzə çıxır.

***- Maraqlıdır ki, həm hakim partiya, həm də bir sıra müxalif partiyalarda gəncləşmə getsə də, lakin bu qüvvələr gənclərin önə çıxmasının qarşısını alırlar. Sizcə bu elektorat yoxluğu və yaxud qısqanclıqdan irəkli gəlir?***

- Təbii ki, gəncləşmə olmalıdır və hər bir siyasi partiya, təşkilatdan gənclərdən ibarət potensial siyasi lider ortaya çıxmalıdır. Lakin bunların maddiyat məsələsi kifayət qədər qaranlıq olduğu üçün, gənclər arasında potensial lider ortaya çıxan kimi vurub sıradan çıxarırlar. Məsələn REAL-da pis-yaxşı potensial liderlər üzə çıxdı. Onlar da əvvəl həmin qüvvələrlə bir yerdə idilər. Onları da dərhal axından kənarda qoydular ki, bizim yerimizə gələ, Milli Şuranı zəbt edə, maddi yardımları ələ keçirə bilərlər. Ona görə də özləri də dəyişməyə meyilli deyillər. Yəni artıq bunların əllərindən gələn başqa bir işi yoxdur. Dövlətə, millətə xəyanət, qisasçılıq. Bir sözlə ya qaydalara, qanunlara, demokratiyaya uyğun yeniləşməlisən, ya da yerində saymalısan. Milli Şurasan, çox gözəl. Təklif ver, məsələn iqtisadi, yaxud aqrar sahədə aparılan islahatlar barədə təklif irəli sür. Özünə elektorat topla. Ancaq biz həmin qüvvələrdə nəyi müşahidə edirik? Söyüş, təhqir, qeyri-sağlam mübarizə üsulu. Bu artıq tükənmək deməkdir.

***- Belə demək mümkünsə siyasi iflasın bir addımlığı***

- Mən ona siyasi iflas deməzdim. Daha doğrusu özlərini xərcləmiş, bitmiş insanlar.

*(olaylar.az)*

# Tarix unudulmur...

*Siyavuş Novruzov: "Milli Şura"nın müzakirə etdiyi məsələ onların xislətini ortaya qoyur"*

***Deyir haqq nazilər, amma üzülməz. Bəli bu gün Azərbaycanın tarixinə qara ləkə kimi həkk olunan AXC-Müsavat cütlüyünün bir illik hakimiyyətləri və müxalifətdə olduqları 27 illik ərzində əməlləri, etdikləri cinayətlər unudulmur. Və xalq tərəfindən 2003-cü ildən arxivin zibilliklərinə tulladılan AXC-Müsavat hakimiyyəti dövründə özbaşınalıq, korrupsiya, talançılıq, rüşvətxorluğu da unudulmur. Prezidenti İlham Əliyevin Sumqayıt və Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışlarında fikirləri, ritorikası, səsləndirdiyi qətiyyətli çağırışları açıq-aydın şəkildə bir daha AXC-Müsavat hakimiyyətinin xəyanətkar simasını, anti-demokratik mahiyyətini ifşa etdi. Bəli, ölkə Prezidenti tamamilə haqlıdır: "Tarix unudulmur və yaxın tariximizin canlı şahidi olan insanlar hələ həyatdadırlar". Və bu gün bu cinayətkarların "Milli Şura" deyilən qurumda birləşərək keçirilən səviyyəsiz yığıncaqları da bir daha onların əsil simalarını nümayiş etdirir.***



### Siyavuş Novruzov: "Azərbaycan xalqı çox haqlı olaraq, bu şəxslərin üstündən vaxtında xətt çəkib və tarixin arxivinə, zibilliyinə yollayıb"

"Milli Şura" adlı qurumun qapalı iclasında iştirak edənlər yenidən hər şeyi iqtidarın üzərinə atmağa cəhd etdilər. Onlar əvvəlcə Azərbaycan xalqından üzr istəməli idilər". Bunu YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, onlar öz daxili aləmlərini, daxili düşüncələrini və kimlərin müdafiəçisi olduqlarını açıq şəkildə ortaya qoymuş oldular: "Oradan müxtəlif adamların istefası bir daha göstərdi ki, onlar üçün Azərbaycan xalqı, milləti, dövləti və dövlətçiliyi əsas deyil, əsas olan ayrı-ayrı qruplardır. Neçə illərdir bu şəxslər Azərbaycan xalqına qarşı apardıqları işlərdə ermənin dəyirmanına su tökməklə, ermənilərin maliyyəsi hesabına istər Azərbaycandan kənarda, istərsə də Azərbaycan sərhədləri daxilində antiazərbaycan təbliğatı aparmaqla, saxta miqrant sənədləri satmaqla məşğuldurlar. Bu, artıq həmin şəxslərin Azərbaycan cəmiyyətində "pasportu"dur. Azərbaycan cəmiyyətində həmin qruplara qoşulan insanlar o cür "pasport"a layiqdirlər".

YAP rəsmisi onu da qeyd edib ki, bu adamlar canlı yayım vasitəsilə qapalı iclası Avropaya yaymaqla məşğul olublar: "Avropada bu cür qruplara diqqət böyükdür. Gültəkin Hacıbəyli də qapalı iclasda bu fikri səsləndirir ki, bizə diqqət böyükdür və Avropadakıların da bizdən tələbi budur. Yəni Azərbaycan xalqının düşüncəsi bu qrupları maraqlandırmır, Avropanın, Amerikanın bunlardan tələbi nədən ibarətdirsə, həmin tələbləri də yerinə yetirməklə məşğuldurlar. Tanınmamış bir adamın qaldırdığı məsələ ilə bağlı xalqın "taleyüklü" məsələsi ilə məşğul olan "Milli Şura"nın nəyi müzakirə etdiyi onların xislətini ortaya qoyur. Azərbaycan xalqı çox haqlı olaraq, bu şəxslərin üstündən vaxtında xətt çəkib və tarixin arxivinə, zibilliyinə yollayıb. Bu insanlar özlərinə qarşı olanları və yaxud da onları dəstəkləyənləri müzakirə edirlər".

### Eks-spiker Rəsul Quliyev: "Cəmil Həsənli kimi başı boş, ağıldan kəm adamları heç bir yazı ilə anlatmaq mümkün deyildir"

Göründüyü kimi, həqiqətən də tarix unudulmur və bu gün "Milli Şura"nın virtual iclasının sosial mediada yayılan məlum videosuna münasibət bildirən eks-spiker Rəsul Quliyev bildirib ki, "Milli Şura" adlanılan qurumun iclasının canlı yayıma çıxması həmən mənə göndərildi. Onsuz da bu şuradan ağıllı bir şey gözləmirdin, ancaq bu səviyyədə neqativ səviyyədə olduqlarını düşünürdüm. Çünki ondan öncə də də belə iclaslarda ağızları köpüklənən-köpüklənə ağılasığmaz biədəb sözlər işlətmişdilər. Bu iclasda da qomosoksial birisini kişi ... (fahişəsi) adlandırması və onun arxasınca Hitler nə üçün bunların kökünü kəsib qurtarmadı bağırması və orada oturanların bu sayaqlamanı gülüş ,yəni alqışla qarşılanması mənim bu məsələyə qayıtmaq və nəsə yazmaq həvəsimi sıfıra çatdırdı. Və özünü "görkəmli tarixçi" "professor" sayan Cəmil Həsənli kimi başı boş, ağıldan kəm adamlarla niyə cavab vermədi? Çünki özü də elə o səviyyədir onları nə danışman, nə də bir yazı ilə anlatmaq mümkün deyildir. Çünki bu o başı boş "Milli Şura"nın "sədri" Cəmil Həsənli 2007-ci ildə hökumətin dostu olması da Milli Akademiyaya müxbir üzv seçilməsinə kömək etmədi, buna baxmayaraq özünü ən "görkəmli tarixçi", "professor" adlandıran şəxsin yazısını oxudum və bununla əlaqədar yazı yazmamağın mümkünsüzlüyünü anladım. Çünki xəyalında özünü müxtəlif vəzifələr sahibi, "görkəmli tarixçi", "professor" sayan Cəmil Həsənli kimin kiminlə hansı intim münasibətlə yaşadığını müzakirə etmək üçün qapalı iclas keçirirdiniz, "anna" müxalifətin işi budur".

### İqbal Ağazadə: "Əslində, Milli Şura deyilən təşkilat yoxdur"

"Ümid" Partiyasının sədri İqbal Ağazadə isə bildirib ki, "Milli Şura"nın onun üçün heç bir marağı olmadığını deyib: ""Milli Şura" mənim üçün maraqlı olmadığına görə, orda gedən prosesləri daimi izləmirəm. Çünki əslində, "Milli Şura" deyilən təşkilat yoxdur və yox olan qurumla bağlı baş verənlər cəmiyyət üçün o qədər də maraqlı deyil. İstənilən halda, eşitdiklərim və informasiya kanallarından izlədiklərim onu deməyə əsas verir ki, heç bir halda hüquqi dövlət anlayışından kənara çıxmaq və hüquq dövlətindən kənar münasibətlər sistemi yaratmaq, insanları aşağılamaq doğru deyil. Bu, əslində, çox böyük yanlışlıqdır".

O qeyd edib ki, "Milli Şura"nın buraxılması heç nəyi dəyişməz: "Milli Şura"ya onsuz da çox adam qoşulmayıb. Bundan sonra da kim bu quruma qoşulmaq istəmirsə, qoşulmasın. Onsuz da onlar məhdud saydadırlar. "Milli Şura"nın varlığı ilə yoxluğu siyasətdə heç nəyi dəyişməyəcək. Əslində, Milli Şura deyilən təşkilat yoxdur, AXCP var. Mən bu gün Ümid Partiyasının yanında "Beynəlxalq Şura" adlı qurum yaradıb, öz üzvlərimi də ora transfer edə bilərəm. Amma bu heç nəyi dəyişməyəcək".

Göründüyü kimi, istər Əli Kərimlinin, istərsə Cəmil Həsənlinin, Arif Hacılının, İsa Qəmbərin, Gültəkin Hacıbəylinin və bu kimilərin zaman-zaman daxillərindəki çirkablıqlarının açıq mənzərəsidir və söz yox ki, cəmiyyət bəlalərinə nifrət edir, eyni zamanda, onların Azərbaycan üçün hər hansı bir şəkildə təhlükə saymaq da olmaz. Ancaq, unutmamalıyıq ki, milçək murdar olmasa da, ürək bulandırır. Bəlaləri Azərbaycan dövlətinin qüdrətlənməsinə, dünyada söz sahibinə çevrilməsinə qarşı çıxış edən aşkar düşmənlərimiz - ermənilərin nökərləridirlər və lazım olan zaman çoxdan çatıb. Həmin zaman ki, belə xainlər barədə ciddi ölçülər götürülsün!

Göründüyü kimi, zaman-zaman istər Əli Kərimlinin, istərsə Cəmil Həsənlinin, Arif Hacılının, İsa Qəmbərin, Gültəkin Hacıbəylinin və bu kimilərin daxillərindəki çirkablıqlarının açıq mənzərəsidir və söz yox ki, cəmiyyət bəlalərinə nifrət edir. Düzdür, onların Azərbaycan üçün hər hansı bir şəkildə təhlükə saymaq da olmaz. Bəlaləri Azərbaycan dövlətinin qüdrətlənməsinə, dünyada söz sahibinə çevrilməsinə qarşı çıxış edən aşkar düşmənlərimiz - ermənilərin nökərləridirlər və lazım olan zaman çoxdan çatıb. Həmin zaman ki, belə xainlər barədə ciddi ölçülər götürülsün!

***Rəfiqə HÜSEYNOVA***

# Nankor və satqın

## Yaxud Gültəkin Hacıbəyli kimin "şinelində"...



***Bəlkə də təəccüb edəcəksiniz. Nə deməkdir "kimin şinelində?". Cavab bəllidir. AXCP-nin "primadonnası"dırsa, deməli çıxdığı şinel də Əli Kərimlinin olar. Hər ikisi ikiüzlü, satılıb, satan, mənliklərini ayaqlar altına atan erməni-qulbeçləridir.***

Hər ikisinin xisləti nankorluq, satqınçılıq olub. Və bu gün G.Hacıbəyli kimiləri tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Ənənəvi əməllərini davam etdirmək üçün neyləməlidirlər? Böhtan, şər ataraq bu koronavirus əllərinə "göydəndüşmə" olduğundan "məharətlə yaralanmalıdırlar. Ən əsası da AXCP-nin satqın lideri buyurursa hamı xalqa müraciət etsin və xalqı "ev dustaqlığından azad olmaq üçün xalqı mitinqə" çağırışı etməsi isə lap xəcalətdir. Niyə? Bu o Əli Kərimlidir ki, həmişə Azərbaycan dövlətinə və xalqına qarşı düşmənçilik mövqeyi göstərib. İndii də sosial şəbəkələrdə bildirir ki, Azərbaycan hakimiyyətinin koronavirusla bağlı yumuşulması guya onların çağırışlarından sonra "iqtidarın qorxuya düşməsinin nəticəsi" imiş. Ələyçinin qıl vərəni Gültəkin Hacıbəyli də tutuquşu kimi onun dediklrini təsdiqləyir və dammarı çıxana qədər bütün gücü ilə bağırır ki, "bu bizim gücümüzdür". Bax, simasız, satqın, əxlaqsız buna deyərlər. Koronavirusun ilk günlərində bildirirdilər ki, pandemiya ilə bağlə "guya ölkədə heç bir tədbir görülmür" deyirdilərsə, indi də "artıq iqtidar bizim çağırışımızdan qorxuya düşərək yumuşalıb" demələri həqiqətən də, əsil həyasızlıqla yanaşı, vicdansızlıq, əxlaqsızlıq və mənəviyyatsızlıqdır.

Doğurdan da qadının rəzil olması bədbəxtçilikdir. Çamura batmış G.Hacıbəyli pula görə həya nə demək olduğunu belə anlamır. İndii də G.Hacıbəyli elə havalanıb ki, hamını satqın adlandırır. Bu yerdə kor-kora kor deməsə, doğurdan da bağrı çatlar. Bəlkə utanasan. Utanmağa üz olarsa. Sosial şəbəkələrin daimi klenti G.Hacıbəyli dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmadığını bir oturub düşünürsən. Bəlkə azacıq da olsa, həya deyilən hiss var?. Adamın yazığı gəlir buna. Bir də deyirəm, qadının bu kökə düşməsi dəhşətdir. Ancaq bunu anlaya bilirmi? G.Hacıbəylinin keçmiş qaynanasının dediklərini eşidəndə bir daha bu qadının nə qədər mənəviyyatsız və satqın olduğunu şahidi olursan.

### Keçmiş qayınanası: "Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə!"

Bəli, düz sözə nə deyəsən. G.Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova 14 ay gəlin olduğu müddətində ona qarşı böyük haqsızlıqlar etdiyini bildirərək, indi də həmin yolu getdiyini bildirib: "Bu o Gültəkindir ki, doğma əmisinə "torba" tikdi. Onun əmisi İdris Hacıyevin adına "Emil" MMC açdıraraq, rayonda 20 hektar ərazidə gips karxanasına yiyələnmişdi. Sonra qazancı bölüşdürə bilmədiklərindən, Gültəkinin təzyiqi ilə Göranboy rayon icra hakimiyyətinin məhkəmədə qaldırdığı iddia əsasında İdris Hacıyev "cəzalandırıldı", karxana əlindən alındı. Bundan sonra həmin ərazi Gültəkin Hacıyevanın atası Yunis Hacıyevin adına açılmış "Gülüstan" MMC-nin icarəsinə verildi. Doğmasına qarşı nankorluq, xəyanət edən Gültəkin xalqına da Vətəninə də bu cür addımlar atar, necə ki, indi bu çirkin yoldadır. Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə, nə doğmaları. Onun məramı-məqsədi şəxsi mənafeləri üçün insanları şərləmək, kələk gəlmək və sair. O, mənəvi dəyərlərini itirmiş əxlaqsızdır. İkiüzlü, sürüşkən, xain, anormal G.Hacıbəyli elə Əli Kərimli, Cəmil Həsənli kimi satqınların, ikiüzlülərin yanıda olar. Belələri ən ağır cəzaya məhkumdur".

Bələliklə, sözümün canı ondadır ki, bu siyasətə qoşulan sosial şəbəkə quldurları heç əslində siyasətin nə demək olddoğunu belə anlamırlar. Çünki yollarını azıblar. Bax, elə bəla d bundan sonra başlayır. Qudrurub quduzlaşırlar. Nəticədə də nə cəmiyyət, nə də ictimai rəy bələrini qəbul etmirlər. Çünki hər kəsə çox gözəl bəllidir ki, üzüdönüklərdən, yollarını azanlardan fərli adam olmaz... "

### Nankoluq onun xislətindədir

Düz sözə nə demək olar. Gültəkin Hacıbəylinin qayınanasının dediyi kimi, üzüdönüklərdən, yollarını azanlardan fərli adam olmaz. Çünki bu, o G.Hacıbəylidir ki, hər sifətdə ola bilir. Elə bu yerdə bir məqamı xatırlatmaq istərdim. Belə ki, onun "Baxış bucağı" verilişində jurnalist həmsöhbətinə belə bir sualla müraciət edir: "Gültəkin Hacıbəyli üçün nə dəyişdi ki, hakimiyyətin aktiv təbliğatçısı müxalifətin ən böyük birliyində təmsil olunmağı qərara aldı?" G.Hacıbəyli əvvəlcə suala etiraz etdi. Jurnalist bildirir ki, verilişdən əvvəl G.Hacıbəyli özü və "Milli Şura"nın heç nəyə yaramayan sədri Rüstəm İbrahimbəyov barəsində sualları çıxardı, bildirdi ki, bu sualları vermə, versən də, cavab verməyəcəm, deyəcəm ki, cəmiyyətə bizim mübarizəmiz maraqlıdır-filan... idi.

Göründüyü kimi, qeyd olunan bu hadisə də "demokratiya" libasına bürünən, xalqa "demokratik prinsiplərdən dərs keçən", yeri gəldi-gəlmədi iqtidarı tənqid edən G.Hacıbəyli həqiqətən də rəzil və bədbəxtdir. Bu yerdə məşhur bir atalar məsəlini xatırlamasan olmur: utanmasan, oynamağa nə var ki?

Son olaraq qeyd etmək istəyirəm ki, G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - NANKORLDUQ!!!

***R. Kamalqızı***

# Gürcü memarlığının ermənilər tərəfindən saxtalaşdırılması

***Ancaq tariximizin bir elm kimi ləğv edənlər hələ bizə tam şəkildə köçürülməmişlər. Bu yaxınlarda nəşr olunan N.M.Tokarskinin "Qədim Ermənistanın arxitekturası" kitabı belə bir fikir yaradır. Müəllif öz qarşısına "qədim erməni memarlığının ümumi baxışını yaratmaq, onun əsrlər boyu müxtəlif şəraitdə necə işlədiyinin, erməni memarlarının yaradıcı ideyasının necə inkişaf etdiyini və onların müxtəlif memarlıq formalarının yaradılması prosesində öz xarici yoldaşları ilə peşələrinə görə nə ilə mübadilə etdiklərini izləmək" məqsədini qoymuşdur. Vəzifə şərəfli və aktualdır. Lakin erməni xalqının zəngin memarlıq irsi Tokarskinin kitabında layiqli şəkildə öz əksini tapmamışdır. Müəllifin pis metodologiyası, meyllilik, ifadəolunmaz üslubu, elmi araşdırmanın vəzifələri ilə heç bir əlaqəsi olmayan mülahizələri - təsadüfi olaraq, əlbəttə ki, yüksək elmi müəssisənin markasını daşıyan bu kitabda diqqəti çəkir.***

Kitabın ümumi xarakteristikası üçün onu qeyd edək ki, elan olunmuş plana əsasən, akademik nəşrdə memarlıq formalarının inkişafının, təxminən, bir yarım minillik prosesinə fikir verməklə tələb olunur, oxucu isə cəmi iki kəsiyi tapır. Belə ki, burada Dvin və Vaqarşapatdakı saraylar haqqında ancaq sarsıdıcı təsvirlər, fraqmentar memarlıq bəzəklərinin iki şəkli və Tokarski tərəfindən yerinə yetirilmiş "Katolikos palataları"nın yenidən qurulması verilmişdir. Müəllif hazırda xarabalıqlarda olan bu tikililərin planlarını əlavə etməyi lazım bilməmişdir. Tokarski özü dağıdılmış binaların bu cür yenidən qurulmasının bəzən baha başa gəldiyini bu bölmənin sonunda bildirir: "Patriarxal palataların cənub hissəsinin cənub-şərq küncündə, memar T.Toramanyanın yenidən qurulmasında üçbucaqlı bazilika şəklində təqdim olunan kiçik bir kilsənin absidi qorunur. Əslində isə, ehtimal ki, burada kiçik bir monofonik ibadətgah var idi".

Tokarski öz rekonstruksiyası haqqında belə ətraflı məlumat verir: "Sxematik bir yenidənqurmada, divardakı uzunlamasına pəncərə və qapılar təsadüfi olaraq yerləşdirilmişdir, çünki onlar haqqında xarabalıqlarda heç bir məlumat yoxdur"..

"Binanın başqa cür yenidən qurulmasını da vermək olar, çünki burada həyət yox, zal var idi" və s. . Bu cür elmi işdə labüd olan şərtilik və hipotetiklik həmin hallarda o həddə çatdırılmışdır ki, yenidənqurma bütün mənasını və əhəmiyyətini itirir.

Bir çox digər ziddiyyətlər və məntiqi uyğunsuzluqlar müəllif tərəfindən tamamilə nəzərə alınmır. Belə ki, o, iddia edir ki, "erməni memarları bazilikanın üçneflik tağlı kilsə zalının emalı zamanı əldə edilmiş nəticələrlə kifayətlənmirlər. Qübbə ilə örtülmüş bir kilsə binasını yaratmaq vəzifəsini parlaq şəkildə həll edirlər". Bu məsuliyyətli bəyanat nəyə əsaslanır? Yalnız bir-birinə qarşılıqlı olan təsəvvürlərin və fərziyyələrin üzərindədir, tək bir fakt üzərində deyildir. Faktların olmaması müəllifi utandırmağa imkan vermir - onları əvəz edəcək bir şey var. "Tikilinin günbəz forması, - o davam edir, - yalnız kilsə tikintisi ilə bağlı işlənib hazırlanmışdı, hesab etmək lazımdır ki, günbəzlərin tikilməsi texnikası memarlara daha əvvəllər yaxşı məlum idi (Necə?). Ermənistanda VI əsrdən əvvəl inşa edilmiş qübbəli binaların olmaması bunun əksinə dəlil ola bilməz, çünki Sasani İranı ilə yaxın bir ölkədə (və yalnız ona müvəqqəti tabe olmaq qaydasında deyildi) bunu güman etmək çətindir. Sasani hökmdarlarının vəsiyyəti ilə tikilmiş (yəni hökmdarları deyildi - S. D.) möhtəşəm saray tikililəri hələ də ən tələbkar sənət bilicilərini sevindirməyə qadirdir".

(Yenə orada). Sadəcə olaraq aydındır ki, Ermənistanda VI əsrdən əvvəl ucaldılmış günbəz tikililəri qalmamışdır, lakin əvəzində isə onlar qonşu İranda saxlanılmışdır; Ermənistan isə İranın nəinki siyasi, həm də mədəni təsirini hiss etmişdir; ona görə də Ermənistanın İrandan günbəz formalı tikililəri ələ keçirməməsini güman etmək çətindir. Amma belə bir halda günbəz tikililərinin işlənməsi işində birincilik fars memarlığına keçir. Lakin Tokarski bu manevrlərlə hesablaşmayaraq təmənnasız olaraq davam edir: "bu hələ aydınlaşdırılmamışdır", harada (İranda və ya Ermənistanda) əvvəllər günbəzə yarımkonus şəklində tağvari keçidin oxşar forması tətbiq edilmişdir; memarlıqda atlı yelkənlər və ya trombun adı ilə məşhur olmuş bu forma yalnız VII əsrin ortalarında Qərbdən gələn sferik yelkənlər tərəfindən qətiyyətlə sıxışdırılmışdır" (Yenə orada). Beləliklə, günbəz bütövlükdə ermənilərin tərəfindən farsların əlinə alınsa da, günbəzin əsas elementi, atlı yelkənlər formasında qısa keçidi hələ müəmmalı olaraq qalır, belə ki, o, həm fars əsilli, həm erməni, həm də başqa formada sferik yelkənlər formasında ola bilər.

Lakin qarışıqlıq bununla bitmir. Bilavasitə olaraq növbəti ifadədə artıq iddia edilir ki, günbəz və ümumiyyətlə, erməni mənşəli ola bilər: "hər bir kənddəki evlərdə taxta tağvari dama rast gələn memarların günbəz barədə olan fikirlərə, günbəz qənaətinə gəlmədiyini də güman etmək çətindir" (burada da aşağıdakı sitatların hamısında olduğu kimi, bizim tərəfimizdən vurğulanır - ). Bütün bunlar bir səhifədə təqdim olunur.

Əlbəttə ki, bu şəkildə, hər şeyə qadir olan formullardan istifadə etməklə: "Çətin", "güman etmək lazımdır", "ehtimal etmək çətindir", "güman etmək çətindir" və s. (Bunların hamısı bir abzasdan yazılmışdır, lakin bütün kitab bunlarla doludur) ilə hər şeyi "sübut edə" bilərsiniz.

Və həqiqətən də, diqqətli oxucunun Tokarskinin iddialarının necə sübutsuz olduğunu görməsi çətin deyildir. Erməni memarlığının bir çox əhəmiyyətli abidələri tamamilə səthi olaraq təsvir edilmişdir. Abidələrin orijinal stilistik təhlili isə yoxdur. Onların bu qədər mühüm əhəmiyyət kəsb edən tarixi əsaslandırılmamış və ya çox qəribə bir şəkildə əsaslandırılmışdır. Belə ki, Yereruykadakı bazilikada olan təsvirin ən əvvəlində, onun "bizə çatan ən qədim kilsələrin" sayına aid olduğu deyilir , sonra "burada yeni bir portiko quruldu... Bazilikanın portikləri nəzərdə tutulmuş, V əsrdə tikilmişdir" və s. . Tekor məbədinin haqqında isə deyilir: "Eyni zamanda (yəni Yereruyka bazilikasının inşasına qədər.), Tekordakı (Diqor) kafedralın inşasına ümumiyyətlə müəyyən vaxt qoyulmuşdu" , Aravus məbədinin tarixindən xristianlığın ilk əsrlərinə qədər (V-VI əsr.)" , biz bilirik ki, Ermənistandakı ən qədim kilsə tikililəri V və VI əsrlərə aiddir, halbuki xristianlıq IV əsrdə Ermənistanın dövlət dini olmuşdur . Bununla yanaşı, kitabda qaldırılan məsələlər onilliklər ərzindəki tarix baxımından əhəmiyyət kəsb edir (baxın: məsələn, Tokarskinin Mtsxet "Cvari"-nin tarixinə dair mülahizələri)1. Astarak və Kasaqdakı kilsələr haqqında deyilir ki, onlar VI əsrdən gec olmayaraq tikilmişdir . Niyə, - naməlum olaraq qalır. Ancaq 121-ci səhifədəki eyni Aştarak "6-7-ci əsrlərə aid olan kilsələr sırasına" daxil edilmişdir. Yeqvartdakı çox absidli məbəd 7-ci əsrin inşası elan edilmişdir lakin bu tarixi dəstəkləyən bir söz də yoxdur. Çox absidli məbədlərin xronologiyası çox vacibdir, çünki bu günə qədər belə tikililərin X əsrdən əvvəl görünməməsi dair fikir hökm sürürdü.

Mətndəki qarışıqlıq və ziddiyyətlər bəzən izah olunmaz ölçülərə çatır. Belə ki, 210-211 səhifələrdə oxuyuruq: "Xaxulda iki rəngin bıçaqları növbələnir. Görünür, yəqin bu texnika belə bir effekt vermişdir ki, bəzi məvcud binalarda, pəncərələrin üstündəki çox rəngli hörüklərin tağları adi üfüqi örtük boya ilə boyanmışdır (Oşk, Parxal). Xaxuldakı kilsənin cənub pəncərəsi ilə kompozisiya baxımından eyni olan (belə ) qərb fasadının zəngin bəzədilmiş pəncərəsində, Oşkda belə bir təqlidin olması, sonuncusunun bir qədər sonra, lakin eyni məktəbin ustaları tərəfindən qurulduğunu göstərir". Bunun Xaxul məbədinin təqlid edildiyi Oşk məbədində mövcud olmasının necə daha sonra tikilmiş Xaxul məbədinin göstəricisi ola bilməsi isə Tokarskiyə həmişə sirr olaraq qalacaq.

Müəllifin növbəti sübutu daha orijinal görünür. Mtsxetanın "Cvari"sinin ilk dəfə olması barədə xüsusi ədəbiyyatda yayımlanan bəyanatla əlaqədar olaraq, "Mtsxetada 604/5-dən əvvəl tikinti işlərinin başa çatması ilə bağlı sual yox idi; xronika şəhadətnamələrinin və səliqə-sahmanın xarakteri onun başa çatdığı tarixi VII əsrin otuzuncu illərinə qədər təxirə salmağa imkan verir"... Tokarskinin sözlərinə görə, müvafiq memarlıq mövzusu hazırlanır; Tokarski həm də etirazını ifadə edir: "yaxşı məlumdur ki, üzdə dayanan tikililərdən başqa, Ermənistanda və Gürcüstanda yerin altındakı monumental tikililərin qalıqları az deyildir, onların arasında bizi maraqlandıran tipdə, Avan və Mtsxetada inşa edilən kilsələr də qala bilər" . Müəllif bu "yeraltı" arqumenti və onun tərkibini necə tez-tez digər yerlərdə istifadə etdiyini, bununla da başqa bir şeydən daha çox olduğunu görmür, bu isə yalnız elmin hesab oluna biləcəyi bütün digər materialların artıq tükəndiyini göstərir.

Səthi olaraq, sübut olmadan qübbəli bazilikanın və "qübbəli salonların" yaranması və inkişafı ilə bağlı çox vacib suallar nəzərdən keçirilmişdir, baxmayaraq ki, müəllif bu məsələlərlə əlaqədar geniş açıqlamalar verir.

Gürcüstanın gözəl məbədi olan "Cvari" və Mtsxeta Tokarski haqqında deyir ki, o, "öz yaradıcılığının günbəzini tipik erməni karnizi ilə əhatə etmişdir" Eyni zamanda "bu formanın mənşəyi haqqındakı bəzi düşüncələri" (yuxarıda göstərilən karnizin növü nəzərdə tutulur), Tokarski özü Kiçik Asiyadan nümunə götürərək bunu təkamülünün bir mərhələsi adlandırır, eləcə də Hərbi - Gürcüstan yolundakı Qarbani kəndinin kilsəsindəki karniz, yəni Gürcüstandan nümunə / Bəs nə üçün bu karniz "tipik erməni karnizi"dir?

Eyni "tipik erməni" karnizi ilə əlaqədar olaraq müəllif yazır: "Bu fakt anlaşılmazlığa səbəb ola bilməz".. Mədəni borclanma faktları yalnız Tokarskidə təəccüb yarada bilər. Elm isə onları öz sərəncamında olan obyektiv üsullarla öyrənir.

Lakin bu halda, Tokarski oxucuya bütün məlum faktları bildirməyə ehtiyac duymur. Beləliklə, xüsusi ədəbiyyatda Aten məbədinin Mtsxetadakından daha sonra inşa edildiyi və bu baxımdan sonuncunun uğursuz bir təqlid olduğu müəyyən edilmişdir.

Tokarskinin bəyan etdiyi proqramın bir hissəsinin reallaşdırılması ilə bağlı kitabında belə qeyd olunur: "qədim erməni memarlığının ümumi baxışını yaratmaq, əsrlər boyu erməni memarlarının yaradıcı düşüncəsinin müxtəlif şəraitdə necə işlədiyini və inkişaf etdiyini görmək"... Artıq Tokarskinin oxucusunun yuxarıdakı fikirlərindən də kitabdakı eyni proqramın ikinci hissəsinin necə həyata keçirildiyini öyrənə bilərik: "baxın... onlar nəyi (erməni memarları) öz peşələrindəki xarici qardaşları ilə mübadilə etmişlər?". Bu məsələnin üzərində daha çox dayanmaq lazımdır.

Əslində, burada mübadilə deklarativ şəkildə , xarici mədəniyyət mühitinə münasibət birtərəfli şəkildə olmaqla qəsdən şərh olunur. Və burada da qarışıqlıq və ziddiyyət olmadan keçinmək mümkün deyildir.

Bu baxımdan Tokarskinin bir neçə səciyyəvi fikirləri belədir: "Ermənistanın qədim memarlığını xristian dövründən xeyli əvvəl Zaqafqaziyada ilk dövlət yaratmış urartuların arxitekturası ilə eyniləşdirmək səhv olardı. Amma ola bilər ki, əsas özəyi - armenlərlə yanaşı, urartanın da daxil olduğu erməni xalqı öz tikililərində ərazilərini işğal etdiyi qədim dövlət ustalarının təcrübəsindən müəyyən dərəcədə istifadə etmişlər. Lakin qeyd etmək lazımdır ki, daha sonra erməni memarları tərəfindən ucaldılmış tikililərdə tikinti texnikasının, Mesopotamiya xalqlarının, o cümlədən assuriyalıların texnikasına daha yaxın olan urartuların tikililərindən kəskin şəkildə bir fərqi var"... "Bütün bunlardan urartuların və ermənilərin memarlıq abidələrinə dair ümumi qərarlarının, texnikalarının və bəzək-düzəklərinin bir-birindən nə qədər uzaq olduğunu və səhvə yol verməmək üçün varislik məsələsinə nə qədər ehtiyatla yanaşmağımızın lazım olduğunu görürük".

Deməli, erməni memarları qədim Urartu ustalarının təcrübəsindən nə ümumi qərarlarında, nə texnikalarında, nə də ki, bəzək işləri sahəsində istifadə edə bilmirdilər. Onda sual olunur ki, bəs onlar bu təcrübədən harada istifadə edə bilərdilər?

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

20 may

## Avropada mentollu siqaretlər qadağan olunur




Mayın 20-dən Avropa İttifaqı ölkələrində mentollu siqaretlər qadağan olunur. AZƏRTAC xəbər verir ki, süzgəci xarakterik aromalardan (mentol) ibarət siqaretlərlə bağlı dördillik keçid müddəti sabahdan başa çatır. Mentolun tütünün dadını üstələməsi və bu yolla da siqaret aludəçiliyini artırması mentollu siqaretlərin qadağan edilməsinin əsas səbəbi kimi göstərilir.

Qeyd edilməlidir ki, bu qadağa 2014-cü ildə Aİ-də tütün istehlakı ilə bağlı qəbul edilən və 2016-cı ildə qüvvəyə minən qaydaların tərkib hissəsidir. Həmin qaydaların əsas hədəfləri arasında yeniyetmələr arasında siqaretdən istifadə səviyyəsini aşağı salmaq və erkən ölüm hallarını azaltmaq da yer alırdı. Avropa Məhkəməsi hələ 2016-cı ildə tütün istehsalı şirkətlərinin mentollu siqaretlərin qadağasının aradan qaldırılması üçün şikayətlərini rədd etmişdi. Məhkəmə öz qərarında mentolun tərkibindəki xarakterik aromaların siqaret çəkməyə yeni başlayan şəxslər üçün daha cəlbedici təsirə malik olduğunu əsas gətirərək, aludəçiliyin və tütün istehlakının səviyyəsini aşağı salmaq üçün qərarı qüvvədə saxlayıb. Qeyd edilməlidir ki, mentollu siqaretlərin Aİ tütün satışı bazarında payı təxminən üç faizə bərabərdir.

## Mayk Tayson bu döyüşə razılıq verdi!



***Boks üzrə ağır çəkidə keçmiş dünya çempionu Şanon Briqs və Mayk Tayson döyüşməyə razılıq veriblər. Bu barədə Ş.Briqs jurnalistlərə müsahibəsində bildirib. O deyib ki, bu yaxınlarda rəsmi döyüşlə bağlı rəqibi ilə razılığa gəlib.***

Ş.Briqs sonuncu döyüşünü 2016-cı ildə keçirib. O, karyerası ərzində 68 döyüşdən 60-da (53-ü nokautla) qələbə qazanıb, 6 dəfə məğlub olub. "Dəmir Mayk" ləqəbli M.Tayson isə peşəkar karyerasını 2005-ci ildə başa vurub. O, karyerası ərzində 58 döyüş keçirib ki, onların 50-də qələbə (44-ü nokautla) qazanıb. "Dəmir Mayk" altı döyüşdə rinqdən məğlub ayrılıb.

## Məşhur dietoloqdan SOS:
## Bu meyvə və tərəvəzləri almayın!

***Nitratlardan zəhərlənmək istəmirsinizsə, mövsümi meyvə-tərəvəz almalı, həmçinin ideal formalara və parlaq rənglərə üstünlük verməməlisiniz.***

Rusiya mətbuatı xəbər verir ki, bu barədə Krım Federal Universitetinin Tibb Akademiyasının İctimai Səhiyyə, Təşkilat və Sağlamlıq İqtisadiyyatı kafedrasının dosenti İrina Suxareva məlumat verib. Mütəxəssis hələ "rəsmi" yetişmə mövsümü elan edilməyən bir çox tərəvəz, meyvə və giləmeyvə istifadəsini minimuma endirməyi məsləhət görür. O hesab edir ki, meyvələri orta ölçülü seçmək lazımdır. Qabığın altında qəhvəyi və ya boz rəngli ləkələr görünürsə, belə meyvə və tərəvəzləri almağa dəyməz.



"Parlaq rəng, çox ideal meyvə formaları sizi özünə cəlb edə bilər. Lakin bilməlisiniz ki, ailənizi qorumağın etibarlı yolu - cib selitrası sayğacı almaq və almazdan əvvəl meyvə-tərəvəzləri sınamaq üçün vərdiş inkişaf etdirməkdir".

Beləliklə, bədənin emal edə biləcəyi və icazə verilən gündəlik miqdar böyüklərdə 1 kiloqram bədən çəkisi üçün 3,7 mq, uşaqlarda isə eyni çəki üçün 0,2 mq-dır.

Həkim qeyd edib ki, tərkibinə nitrat və pestisidlər vurulmuş məhsulların sistematik istifadəsi tiroid vəzində, mədə-bağırsaq sistemində pozulmalara, eyni zamanda allergiyaya səbəb ola bilər. "Qida allergiyası, bronxial astma, hepatit və öd kisəsindəki daşlardan əziyyət çəkən insanlar meyvə-tərəvəzlərdəki nitratlara xüsusilə həssasdırlar", - deyə İrina Suxareva izah edib.

Mütəxəssisin fikrincə, məktəbəqədər yaş dövründə olan uşaqlar da nitratlara qarşı həssasdırlar: belə məhsullardan istifadə edən hər üçüncü və ya dördüncü uşaqda allergiya müşahidə olunur: "Nitratların ən aşağı konsentrasiyası adətən pomidor, badımcan, soğan, kartof, bibər, yaşıl noxud, lobya, alma və ən çox giləmeyvələr olur - məhsulun hər kiloqramına təxminən 80-100 mq düşür.

Şalğam, xiyar, yerkökü, kabaçki, gül kələmi və ağ kələmdə isə nitrat daha çoxdur - hər kiloqramına 300-600 mq. Nitratın yüksək konsentrasiyası turp, çuğundur, kərəviz, brokkoli, şüyüd, ispanaq, qarpız, qovun, yaşıl soğan və kahıda ola bilər"./publika.az

## Egey dənizində yalançı qatil balinalar üzə çıxıb

Egey dənizində 25 il sonra ilk dəfə yalançı qatil balinalara rast gəlinib. AZƏRTAC xəbər verir ki, Türkiyənin Gökçeada sahillərinə yaxın bölgədə görüntülənən bu su canlıları İstanbul Universitetinin su elmləri fakültəsinin mütəxəssisləri tərəfindən araşdırılıb. Məlum olub ki, görüntüdə müşahidə edilən səkkiz su canlısı nəsli kəsilməkdə olan və bu bölgədə 25 ildir görünməyən yalançı qatil balinalardır. Elmi adı "Pseudorca crassidens" olan bu balina növü-



nün şimali Egey bölgəsində indiyədək görülmədiyi də bildirilib. Qeyd edək ki, bu canlılar baş hissəsi qatil balinalara bənzədiyi üçün 1800-cü illərdə "yalançı qatil balina" olaraq adlandırılıb.

## Sabunçuda oğurluq edənlər yaxalanıb

Sabunçu rayonunda oğurluqla məşğul olan şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 16-da Sabunçu rayonu ərazisindəki evlərin birindən 1000 ABŞ dolları oğurlamaqda şübhəli bilinən İsmayıllı rayon sakini E.İsayev Rayon Polis İdarəsinin 12-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Mayın 6-da isə rayon ərazisindəki evlərin birindən televizor, tozsoran və 3 ədəd qol saatı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuşlar - S.Qəzənfərov və H.Qurbanov şöbənin əməkdaşlarının keçirdikləri digər əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıblar. Hər iki faktla bağlı araşdırma aparılır.



## Bakıda soyğunçuluq edən şəxs tutulub

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 28-də Binəqədi rayonunda Ü.Kazımovun 160 manat məbləğində pulunu və mobil telefonunu soyğunçuluq yolu ilə almaqda şübhəli bilinən T.Məmmədov rayon polis idarəsinin 5-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb. Tovuz Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində martın 17-də H.Hümbətovun təqaüd kartından 277 manat məbləğində pulu çıxararaq oğurlamaqda şübhəli bilinən Aşağı Öysüzlü kənd sakini X.Məmmədov saxlanılıb. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

### ELAN

Hacızadə Sənan Ədalət oğluna məxsus Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun şəxsiyyət vəsiqəsi (Nömrəsi: GH006135, verilmə tarixi: 06.11.2019) itdiyi üçün etibarsız sayılır.

### Başsağlığı

Novruzova İmamirə, Novruzov Arzu və Qurbanov Tural qonşuları Sadıqov Faust Abbas oğlunun vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**